# *TARİXİMİZDƏ İZ QOYANLAR*

*Dr. Reha Yılmaz*

*Tariximizdə iz qoyanlar*

**Təsisçi:**
**"Xəzər Nəşriyyatı"** MMC

**Redaktor:**
*Rəcəb Səfiyev*

**Tərcümə:**
*Aytən Mabudova*

**Korrektor:**
*Süräyya Eyyubova*

**Texniki Redaktor:**
*İftixar Məmmədov*

**Üz Qapağı:**
*İlkin Abdulla*

**İnternet Adresi:**
info@xezernesriyyat.com
www.xezernesriyyat.com

**Çap Tarixi:**
2008

**Tiraj:** 500 ədəd
**Səhifə sayı: 204**
**ISBN** 978-9952-439-16-8

# ORTA ƏSRLƏR ŞƏRQİNİN ƏN BÖYÜK MEMARI

## *ƏCƏMİ NAXÇIVANİ*



XI-XII əsrlər Azərbaycan intibahının çiçəklənməsi dövrüdür. Həmin dövrdə şəhərlər böyüyür, bir-birinin ardınca yeni saraylar, məscid və mədrəsələr inşa edilir, müdafiə və xatirə tikililəri qurulurdu. Sənətkarlıq, elm, incəsənət və poeziya sürətlə inkişaf edirdi. Bu əsrlərdə neçə-neçə görkəmli sənətkarın və alimin yetişməsi də adamı heyrətə salır. Qətran Təbrizi, Bəhmənyar, Xətib Təbrizi, Nizami Gəncəvi, Xaqani Şirvani, Ömər Kafiəddin, Əbubəkr Gəncəvi, Məhsəti Gəncəvi və başqaları həmin dövrdə Azərbaycanın nəinki türk-islam aləminə, həm də dünyaya bəxş etdiyi böyük şəxsiyyətlərdir.

Yalnız Şərqdə deyil, eyni zamanda Qərb dünyasında da yaxşı tanınan bu insanlardan biri, Əcəmi Əbubəkr oğlu Naxçıvanidir. O, orta əsrlərdə Azərbaycanda yetişmiş və dünya şöhrəti qazanmış memardır. Əcəmi irsi Azərbaycan və Yaxın Şərq ölkələri memarlığına böyük təsir göstərmişdir. Belə ki, Marağadakı Göy günbəzdə (1196-cı il), Naxçıvan yaxınlığındakı Gülüstan türbəsində (XIII əsr), Qarabağlar, Bərdə və Salmas türbələrində (XIV əsr), türk memarı Sinanın (XVI əsr) İstanbulda ucaltdığı türbələrdə Əcəmi sənətinin ənənələri yaşayır.

Əcəmi Naxçıvaninin adı Azərbaycan memarlığının ən görkəmli nümayəndəsi və Naxçıvan memarlıq məktəbinin banisi kimi mədəniyyət tariximizə əbədi həkk olunmuşdur. O, sənət dühası ilə orta əsrlər Azərbaycan memarlığına yeni təkan vermiş, Səlcuqlular dövrü memarlığının sərt üslubuna incəlik və dinamizm bəxş etmiş, Yaxın Şərq memarlığına güclü təsir göstərmişdir. Əcəminin adı həm də Azərbaycan ictimai fikir tarixində şərəfli yer tutur. Əcəmi eyni zamanda dövrünün memarları arasında daha çox fəaliyyətlərinin elmə bəlli olması ilə seçilir. Yüksək sənət əsərləri üzərindəki kitabələrdə özünü "Əbubəkr oğlu Əcəmi, Naxçıvanlı memar" adlandıran sənətkar gözəl memarlıq nümunələrində təsviri sənəti və mühəndisliyi memarlıqla ahəngdar və elmi şəkildə birləşdirmişdir.

Əcəmi Naxçıvani irsi XII əsr Azərbaycan mədəniyyəti və ictimai fikrindəki intibahın parlaq təzahürlərindəndir. Onun əsərlərindəki zəriflik, əsərlərin həndəsi quruluşu, ornamentlər bədii təfəkkürün ən yüksək məhsuludur. Əcəminin ornamentlərdən ibarət kompozisiyaları bədiiliklə riyazi təfəkkürün üzvi birləşməsinə əsaslanır. "Əcəmi Naxçıvani memarlıq sənətinin başlıca problemlərindən olan tektonikliyin (arxitektonika) dünya memarlığında az təsadüf edilən parlaq həllini tapmış mühəndis və sənətkar olmuşdur.

Onun yüksək mühəndislik qabiliyyəti Qərbi Avropa memarlarından bir əsr əvvəl Mömünə xatun türbəsinin sərdabəsində qurduğu nervürlü tağlar sistemində və onun oturacağındakı mürəkkəb ornamentlərin əvvəlcədən hazırlanmış tavalar şəklində tərtibində, Cümə məscidinin nəhəng günbəzində və qoşa minarələrdə özünü göstərir" ("Azərbaycan Sovet Ensiklopediyası", IV cild, səh.260).

Tanınmış sənətşünas Əbdulvahab Salamzadə onun sənəti haqqında yazır: "Yaxın Şərqin bir çox irsində onun təsirini izləmək çətin deyil. Onun meydana gətirdiyi nadir arxitektura əsərləri əsrlər keçməsinə baxmayaraq, böyük estetik həzz mənbəyi kimi sənətkar dühasının gücünü əks etdirir. Bu əsərlər sübut edir ki, Əcəminin ölməz irsi, haqlı olaraq, memarlıq sənətinin əbədi nümunələrindən sayılır.

Yenidən doğulmuş bu sənət abidələri belə bir fikrə gəlməyə əsas verir ki, Əcəmi Naxçıvani öz dövründə tayı-bərabəri olmayan sənətkarlardandır. Təsadüfi deyil ki, XIII əsr mənbələri onun "şeyxül-mühəndis" (mühəndislərin başçısı) rütbəsi daşıdığından xəbər verir. Hələ Qərb dünyasında arxitektura sənəti anonim səciyyə daşıyan bir dövrdə Əcəmi bir çox memarlıq incilərinin müəllifi kimi bizim qarşımızda parlaq və təkrarolunmaz qurucu simaya malik böyük sənətkar, bədii və mühəndis təfəkkürünün nəhəngi kimi canlanır".

Əcəminin həyat və fəaliyyəti Azərbaycanda Atabəylər dövlətinin hakimiyyəti dövrünə təsadüf edir. Bu dövlətin böyük şəhərlərindən biri də Naxçıvan idi. Atabəylər dövləti Böyük Atabəy Şəmsəddin Eldənizin dövründə formalaşmış, onun oğlu Nüsrəddin Məhəmməd Cahan Pəhləvanın hakimiyyəti illərində çiçəklənmişdir. Əcəminin irsi Naxçıvanla bağlı olmuşdur. Onun müəllifi olduğu ilk abidə Yusif ibn Küseyir türbəsidir.

Naxçıvanda yerləşən və el arasında "Ata baba günbəzi" adı ilə tanınan bu türbə 1162-ci ildə ucaldılmışdır. Türbənin giriş qapısından soldakı kitabədə memarın adı belə yazılmışdır: "Bənna Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməli".

Təkcə Azərbaycanda deyil, bütün İslam aləmində ən hündür və incə kompozisiyalı sənət əsərlərindən sayılan Mömünə xatun türbəsi Əcəminin layihəsi əsasında 1186-cı ildə Naxçıvan şəhərinin qərbində ucaldılmışdır. Elin yaddaşında "Atabəy günbəzi" adı ilə qalan bu türbə Atabəy Şəmsəddin Eldənizin arvadı, Məhəmməd Cahan Pəhləvanın anası Mömünə xatunun şərəfinə tikilmişdir. Türbə özünün iri ölçüləri, monumental biçimləri və dinamik silueti ilə böyük memarlıq kompleksidir. Memarlıq prinsiplərinin təkmilləşdirilməsi əsasında ucaldılmış on guşəli Mömünə xatun türbəsi monumental abidədir.

Tarix öz qoynunda Əcəminin həyatı haqqında, onun ölməz əsərlərindən başqa heç nə saxlamayıb. Görünür, dahi memar bunu qabaqcadan gördüyündən öz şah əsəri Mömünə xatun türbəsi üzərində belə yazmışdır: "Biz gedəriyik. Dünya əbədi qalandır. Biz gedəcəyik, dünya qalacaq. Biz ölərik bu bizdən xatirə qalar. İlahi, bədnəzərdən uzaq elə". Bəli, o ölməz sənət abidəsi bu gün də yaşayır.

Müsəlman Şərqində bir neçə memarlıq abidəsi çox məşhurdur. Onlardan Səmərqəndin və İsfahanın memarlıq komplekslərini, eləcə də, Hindistandakı Tac-

Mahalı misal göstərmək olar. Həmin memarlıq komplekslərinin meydana çıxmasından çox-çox qabaqlar dünyanın ən qədim şəhərlərindən olan Naxçıvanda (Bibliyadakı rəvayətlərə görə, bu şəhərin əsası Nuh Peyğəmbər tərəfindən qoyulub) Əcəmi Naxçıvaninin layihəsi əsasında, möhtəşəmlikdə onlardan heç də geri qalmayan arxitektura kompleksi ucaldılmışdır. Ehtimal ki, nəhəng bir ərazidə Eldənizlərin sarayı, Cümə məscidi, xatirə abidələri, mədrəsə, karvansara və digər hökumət tikililəri də inşa edilmişdir.

Həmin tikililərdən dövrümüzə yalnız iki məqbərə gəlib çatsa da, Naxçıvanda saray kompleksinin mövcudluğu XIII əsrdə anonim bir müəllif tərəfindən farsca yazılmış "Əcaib əd-dünya" adlı əsərdə də müəyyən dərəcədə təsdiq edilir. Həmin əsərdə bu cümlələri oxumaq olar: "Naxçıvan Azərbaycanda yüksək bir yerdə salınmış və möhkəmləndirilmiş, əhalisi gur olan iri şəhərdir. Burada çoxlu saraylar, şəhər ətrafı qalalar, malikanələr (köşk) və parad təyinatlı tikililər qurulmuşdur. Şəhərin yaxınlığında daşdan qalalar, qalanın içində isə mədrəsə və məscidlər tikilib. Qalanın içində, həmçinin, gözəl bir bulaq var. Deyilənə görə, dünyada bundan çox məskunlaşmış şəhər yoxdur. Bütün inşaat kirəcdən və bişmiş kərpicdən aparılırdı. Üç və dörd mərtəbəli köşklərin əksər qismi əslində qalalardır. Şəhərin ətrafındakı kəndlər olduqca gözəldir və axar suları var. Çoxlu bağ-bağat salınıb, göz oxşayan çəmənliklər var. Araz çayı şəhərin içindən keçir... Eldənizin mübarək zamanında Naxçıvan tamamilə əzəmətli bir görkəm aldı. Burada şah iqamətgahı ("darül-mülk") və hökumət binaları (dövlətxanalar) tikildi..."

Yazılı mənbələrə əsaslansaq, Əcəmi dövründə Naxçıvanda 250 min nəfər əhali yaşayırdı. O vaxtdan dövrümüzə qədər gəlib çıxmış tikililər arasında ən qədimi Yusif ibn Küseyr türbəsidir. Türbənin məzar hissəsi yerin altındadır. Yerüstü qülləvari hissə piramida formalıdır və səkkizgüşəli işlənmişdir. Türbənin çölə baxan tərəfi kərpic bloklarla hörülmüş, naxışlarla bəzədilmişdir. Abidənin giriş hissəsində kufi xətti ilə belə yazılıb: "Bu, şərəfli dinimizin məşhur rəisi, İslamın gözəlliyi, şeyxlər başçısı Hacı Yusif ibn Küseyrin məqbərəsidir. Şəvval ayı yeddinci, əllinci və beş yüzüncü il (557/1162-ci il)". Türbənin üzərində kufi xətti ilə Qurandan ayələr dekorativ forma ilə yazılmışdır. Girişin sol tərəfində memarın adı həkk olunmuşdur: Əcəmi ibn Əbubəkr Naxçıvani".

Azərbaycanda daha gözəl və daha möhtəşəm bir türbə isə Mömünə xatunun şərəfinə salınmış məşhur xatirə abidəsidir. Qeyd edək ki, Mömünə xatun Atabəy Şəmsəddin Eldənizin birinci xanımı olmuşdur və o, Azərbaycan Atabəylər dövlətinin yaranması və möhkəmləndirilməsi üçün çox böyük işlər görmüşdür. O, dünyasını 1175-ci ildə dəyişmişdir.

Atabəy Şəmsəddin Eldəniz xəstələnərək vəfat etdiyindən türbənin inşasını başa çatdırmaq ona nəsib olmur. Yarımçıq qalmış türbənin tikintisini onun oğlu Məhəmməd Cahan Pəhləvan davam etdirir. Yaxın Şərqin ən nadir incilərindən olan Mömünə xatun türbəsinin tikintisi 1186-cı ildə başa çatır. Abidəni digər analoji tikililərdən fərqləndirən əsas xüsusiyyət onun yeraltı və yerüstü hissələrdən ibarət

olmasıdır. Türbədə Möminə xatunun məzarı və xatirə abidəsi vardır. Tikili formasına görə kəsik onbucaqlını xatırladır, içərisindəki naxışlar çox gözəldir və olduqca incə işlənmişdir. Orta əsr Şərq memarlığında formalaşmış ənənələrə uyğun olaraq, abidənin divarlarındakı kitabədə Qurandan götürülmüş ayələr həkk olunub.

Günümüzdə tanınmış sənətşünasların, demək olar ki, hamısı Möminə xatun türbəsini Tac-Mahalla müqayisə edirlər. Xatırladaq ki, gözəlliyi ilə hər bir insanı heyrətə gətirən Tac-Mahal sarayını inşa etdirən də Cahan adlı türk hökmdarı, türk oğlu olmuşdur. Tac-Mahal da dövrünün tanınmış hökmdarının xanımının şərəfinə ucaldılmışdır. Bir sözlə, Möminə xatun türbəsi özündən sonra yeni ölməz sənət əsərlərinin ucaldılması üçün bir ilham mənbəyi olmuşdur.

Məhz bu amilə diqqət yetirən tanınmış sənətşünas V. M. Alpatov özünün "Ümumi incəsənət tarixi" kitabında Möminə xatun türbəsi haqqında belə yazır: "Bu cür inkişaf tapmış forma hissiyyatına, bu cür klassik kompozisiya bitkinliyinə və kompozisiyanın gerçəkləşdirilməsindəki belə kamilliyə orta əsrlər Avropa arxitekturasında rast gəlinmir. Klassik Şərq ədəbiyyatının ən gözəl nümunələrindən olan Firdovsinin (X-XI əsrlər) "Şahnaməsi", Nizami Gəncəvinin (XII əsr) "Leyli və Məcnun"u kimi ölməz poemalarında olduğu kimi, Naxçıvandakı bu məqbərə də bəşəri mahiyyəti ilə fərqlənir".

Onu da deyək ki, İslam dini dünyagörüşünə görə insanların heykəlini qoymaq düzgün hesab edilmir. Buna görə də, o dövrün Şərq memarları heykəli əvəzləmək üçün inşa etdikləri abidələrin möhtəşəmliyini, daxili və xarici gözəlliyini önə çəkirdilər. Memarlar bu baxımdan abidənin hündür olmasına xüsusi diqqət yetirirdilər. Yəni abidə nə qədər hündür olurdusa, onu inşa edən memarı bir o qədər şöhrətləndirir və abidə sahibini daha qüdrətli göstərirdi. Möminə xatun türbəsinin hündür olması da məhz bu amillə bağlıdır.

Naxçıvanda memar Əcəmidən yadigar qalan abidələrdən biri də qoşa minarəli piştağıdır. Abidə günümüzə dağılmış halda gəlib çatıb. Amma onun üstündəki incə naxışlar, qismən də olsa, ilkin şəkildədir.

Təəssüf ki, abidənin üzərinə həkk olunan "Memar Əcəmi ibn Əbubəkr Naxçıvaninin əsəridir" sözləri müxtəlif təsirlərdən pozulub. Bu abidə Möminə xatun türbəsi ilə yaşıd hesab edilir və ondan bir il sonra inşa edilib. Tikilini fərqləndirən əsas xüsusiyyətlərdən biri, onun qoşa minarəli portal kompozisiya şəklində inşa edilməsidir. Yeri gəlmişkən deyək ki, qoşa minarəli portal formalı abidə ilk dəfə Şərqdə memar Əcəmi tərəfindən inşa edilib. Sonralar Şərqdə memarlar bu formadan geniş istifadə etməklə, bu sənətə yeni nəfəs, yeni istiqamət və yeni ruh gətiriblər.

Əcəminin müəllifi olduğu digər ölməz sənət incisi nəhəng Cümə məscidi hesab edilir. Bu məscid onun sənət fantaziyasının ən parlaq nümunələrindəndir. Məşhur sənətşünas V. Engelqart XIX əsrin ortalarında Cümə məscidi haqqında "Qafqaz" qəzetində yazıb: "Bu, yonulmuş daşlardan tikilmiş və tağları olan nəhəng bir binadır. İçəridə hələ də gözəl relyefli oymaların izləri qalmaqdadır. Məscidin bir hissəsi artıq dağılıb, o biri hissəsi isə dağılmaq üzrədir. Məsciddən 50 sajın aralıda hündürlüyü 20

sajına çatan qoşa minarəli darvaza yerləşir. Darvaza da həmin kompleksə daxildir. Əvvəllər məscidlə darvazanın arasındakı yerdə müxtəlif tikililər olub, ancaq indi onlar yoxdur və adama elə gəlir ki, darvaza bir qədər yaxındakı tənha qalaya aiddir". Güman edilir ki, Cümə məscidi də o dövrün memarlıq ənənələrinə uyğun gələn mədrəsələr və karvansaralardan ibarət vahid bir kompleks olub.

Əcəminin irsində şah əsərlərdən biri də Yusif ibn Küseyr türbəsidir. Bu abidə yuxarıda qeyd edildiyi kimi, xalq arasında "Atababa günbəzi" adı ilə tanınır. Günümüzə yarı dağılmış vəziyyətdə gəlib çatan bu sənət əsəri ötən əsrin ortalarında yenidən bərpa edilib.

Yusif ibn Küseyr abidəsi də Mömünə xatun türbəsində olduğu kimi, yeraltı və yerüstü hissələrdən ibarətdir. Divarlarının qalınlığı 80 santimetrdir. Türbənin səkkizbucaqlı gövdəsi daxildən və xaricdən günbəzlər şəklindədir. Qeyd edək ki, Şərq memarlıq tarixində ikiqat günbəzli memarlıq abidələrinə az hallarda təsadüf edilir. Xaricdəki günbəz piramida formalı kərpiclə qurulub. Daxildəki günbəz isə çatmatağ formasındadır. Ümumiyyətlə, belə bir inşa üslubu Əcəmi irsinə xas olan cəhətdir.

Türbənin naxışları da özünəməxsus şəkildə işlənib. Belə ki, naxışlar bir-birini tamamlayan həndəsi ornamentlərdən ibarətdir. Kiçik kərpiclərdən hazırlanan ornamentlər o dövrdə tikintidə istifadə edilən xüsusi inşaat məhlulu ilə tavalar şəklində birləşdirilib. Amma türbənin digər tərəfi, xüsusilə, qərbə baxan üzü fərqli formada quraşdırılıb. Girişindəki qapı çatmatağ formasındadır. Giriş qapısının ətrafı haşiyələr şəklində olan çıxıntılarla birləşdirilərək baştağ portal şəkli almışdır. Türbənin Əcəmiyə verilən xüsusi sifarişlə inşa edildiyi şübhə doğurmur.

Abidənin xarici görkəmi insanda olduqca xoş təəssürat oyadır. Türbəyə xaricdən baxanda adama elə gəlir ki, türbə günümüz üçün də xarakterik olan xüsusi karkaslardan və dekorativ materiallardan inşa edilib. Tikiliyə dekorativ forma verilməsi məqsədilə müxtəlif şəkilli (üçbucaqlı, altıbucaqlı, rombşəkilli) kiçik kərpiclərdən istifadə edilib.

Yusif ibn Küseyr türbəsi o dövr üçün bir elə də böyük və möhtəşəm sayılmayıb. Onun həcmi kiçikdir. Buna səbəb, ola bilsin ki, abidənin Əcəminin irsinin ilk illərində inşa edilməsi ilə bağlıdır. Türbənin bəzəkləri də digər abidələrlə müqayisədə sadədir. Bununla belə, abidə o qədər incə üslubda inşa edilib ki, ona baxanda istər-istəməz orta əsr memarlığının səviyyəsindən heyrətə gəlirsən. Bu baxımdan, türbə çox qiymətli sənət incilərindən biri hesab edilir və incəsənət tariximizdə seçilən abidələrdəndir.

# ALİMLƏR ALİMİ

## *NƏSİRƏDDİN TUSİ*



Bağdad şəhərindəki İmam Musa ibn Kazımın məzarı yanında sadə və qərib bir məzar da var. Məzarın başdaşı üzərində ərəb əlifbası ilə və olduqca gözəl bir xətlə bu sözlər yazılıb: "Dinin və xalqın dayağı, elm dünyasının şahı. Analar belə bir oğul bir daha doğmadı".

İnsan qəlbini riqqətə gətirən bu sözlər Azərbaycan xalqının dünya elm-mədəniyyətinə verdiyi və bu gün də adı elm aləmində qürurla çəkilən görkəmli filosof, astronom, riyaziyyatçı, tarixçi, iqtisadçı və hüquq elmləri bilicisi kimi tanınan Məhəmməd ibn Həsən Nəsirəddin Tusi haqqındadır. Əsrlər ötsə də, Nəsirəddin Tusinin irsinə maraq heç zaman azalmır. Bircə faktı deyək ki, son 100 ildə dünyada həyatı və ədəbi irsi onun qədər araşdırılan ikinci bir dahi tapmaq çətindir.

X-XIII əsrlər türk və Şərq intibahının ən çiçəklənən dövrü hesab edilir. Həmin əsrlərdə elm və mədəniyyətin sürətli yüksəlişi, təxminən, 300 il sonra da Avropa intibahında əsaslı rol oynayıb. Belə ki, bu intibahın nümayəndələri Şərq intibahından öyrəndiklərini öz dövrlərinin elmi inkişaf səviyyəsinə uyğun olaraq ortaya qoymuşlar. Ona görə də bəzən Şərq və Avropa intibahı nümayəndələrinin elmi əsərlərindəki fikirləri müqayisə etdikdə adama elə gəlir ki, qərbdəkilər özlərindən əvvəlki dövrlərdə yaşayan görkəmli elm adamlarının fikirlərini təkrar etmişlər. Bu baxımdan, inamla demək olar ki, istər astronomiya, istərsə də coğrafiya sahəsində Avropa intibahına əsərləri Tusi qədər təsir göstərən ikinci bir Şərq elm adamı tapmaq çətindir. Əlavə edək ki, Nəsirəddin Tusi öz dövrü üçün elmin ən yüksək zirvəsi hesab edilən Marağa rəsədxanasını inşa etdirərək, orada göy cisimlərinin öyrənilməsi sahəsində böyük bir məktəbin əsasını qoymuşdur.

Tusinin qurduğu rəsədxananı yalnız günümüzdəki məşhur NASA (ABŞ Aviasiya və Kosmos İdarəsi) ilə müqayisə etmək olar. Təsadüfi deyil ki, indinin özündə dünyanın ən məşhur astronomları göy cisimlərinin öyrənilməsi ilə bağlı elmi araşdırmalar apararkən, öncə Nəsirəddin Tusinin bu sahədəki tədqiqatları ilə tanış olur və yalnız bundan sonra hər hansı bir məsələ barədə fikir söyləyirlər. Bu isə türk dünyasının yetişdirib bəşəriyyətə bəxş etdiyi Tusi idrakının böyüklüyünü göstərir.

## *Tusi Tusda, yoxsa Həmədanda doğulub?*

Hələ sağlığında ikən, alimlər alimi kimi məşhur olan Nəsirəddin Tusinin əsl həyatı onun haqqında söylənilən saysız-hesabsız rəvayətlər içində itib-batmışdır. Türk dünyasının böyük oğlu Əbu Cəfər Nəsirəddin Məhəmməd ibn Məhəmməd ibn Həsən Əbubəkrin 1201-ci ildə Tus şəhərində anadan olduğu güman edilir. Amma Tusinin həyatını tədqiq edən bəzi alimlər onun Tusda deyil, Həmədan yaxınlığındakı Bahar adlı yerdə anadan olduğunu iddia edirlər. Belə bir fikir vurğulanır ki, balaca Nəsirəddin körpə yaşlarında ikən, ailəsi Tusa köçmüşdür. Onlar burada yaşadıqları üçün sonralar Nəsirəddinə "Tusi" ləqəbi verilib. Ümumiyyətlə, o dövrdə tanınmış alimlərdən tutmuş, hökmdarlara kimi hamısı yaşadıqları yer və ya qurduqları dövlətlə tanınırdılar. Bu baxımdan onun Həmədanda anadan olub, Tusa getdiyi, uşaqlıq və gənclik illərini orada keçirdiyi üçün Tusi adı ilə çağırılmasında qeyri-adi heç nə yoxdur. Əlavə edək ki, o dövrdə, demək olar ki, bütün Şərq, türklərin hakimiyyəti altında idi. İndiki İranın ərazisi isə, faktiki olaraq, o dövrdə türk torpağı, buradakı türklərin qurduğu dövlət də türk dövləti kimi tanınırdı.

## *Balaca dahi*

Balaca Nəsirəddinin ilk müəllimi öz dövrünün ən elmli adamlarından biri sayılan atası olub. Elmin bütün sahələrini oğluna dərindən mənimsətməyə çalışan ata, əvvəlcə, ona ilahiyyat və hüququ öyrədir. Sonra o, oğlunu dövrün tanınmış riyaziyyatçısı hesab edilən Kəmaləddin Məhəmməd Hasibin yanına göndərir. Şagirdinin riyaziyyat sahəsində istedadını görən müəllimi heyrətə gələrək, onlarla insanın yanında: -"Mənim riyaziyyat sahəsində bildiklərim bu uşağınkından çox deyil. O, gələcəyin ən böyük alimi olacaq. Kim buna şübhə etsə, bir vaxt mənim sözlərimi xatırlayaraq peşman olacaq" - demişdi.

Tusi daha sonra təhsilini o dövrdə məntiq, idrak nəzəriyyəsinin bilicisi, orta əsrlərin ən məşhur filosofu, İbn Sinanın şagirdi olan Azərbaycan mütəfəkkiri Bəhmənyarın yanında davam etdirir.

Gənc Nəsirəddin istedadı, hadisələrin mahiyyətini dərhal qavraması və onu analitik şəkildə izah etməsi ilə Bəhmənyarın da diqqətini cəlb edir. Bəhmənyar Nəsirəddin haqqında: "O, gələcəyin alimi və elm dünyasını özünün idrak nuru ilə işıqlandıracaq görkəmli bir adam olacaq" - deməkdən özünü saxlaya bilməmişdi. Uşaq ikən tanınmış elm adamlarının məclislərində iştirak edərək, onların mübahisələrinə dərindən qulaq asan Nəsirəddinin dünyagörüşünün formalaşmasında bu amil mühüm rol oynamışdı. Tusi ona bütün İslam aləmində və dünyada böyük şöhrət qazandıran "Əxlaqi Nasiri" adlı əsərində belə məclislərin uşaqlar üçün əsl həyat məktəbi, elm dünyasına açılan qapı olduğunu vurğulayıb. Tusidə əsl həqiqəti aramaq həvəsi də elmi məclislərdə iştirak etdiyi vaxtda ayılır. Yeri gəlmişkən, qeyd edək ki, əsl həqiqəti

axtarmaq həvəsi onu sonralar həmin dövrdə müəyyən qədər cəmiyyət tərəfindən qəbul edilməyən ismaililər təriqətinə mənsub olan insanların yanına aparıb.

### *22 illik həbsxana həyatı və yüksəliş*

İsmaililər müəyyən bir əraziyə yayılmışdılar və onların bir çoxu mühüm dövlət vəzifələri tuturdu. Gənc Nəsirəddini sevinclə qarşılayan ismaililər ondan öz ideyalarının daha geniş yayılması üçün istifadə etmək istəyirdilər. Bəzi mənbələrə görə, İsmaili valisi Nasir Mühtəsəm gənc olmasına baxmayaraq, adı dillər əzbəri olan Tusini öz yanlarına Kuhistana dəvət edib.

Tusi öz biliyi və zəngin təfəkkürü ilə ismaililərə böyük təsir göstərir. Amma az sonra Tusi ilə ismaililərin arasında bir çox məsələlərə münasibətdə fikir ayrılıqları ortaya çıxır. Belə ki, vali Nasir Mühtəsəm nəinki idarəetmə sahəsində, həm də elmi məsələlərdə hakim kimi çıxış edirdi. Bütün bunlar da Nəsirəddini razı sala bilməzdi. Valinin elmi məsələlərdə də özünü çoxbilmiş kimi aparmasına və başı çıxdı-çıxmadı, elmi mübahisələrə kobud şəkildə müdaxilə etməsinə qarşı çıxan Tusi bir dəfə onun tərəfindən cəzalandırılır və Alamut qalasına salınır. Bundan sonra gənc Nəsirəddin həbsxana həyatı yaşamağa başlayır. Onun həyatının 22 ili həbsxanada keçir. Lakin Nəsirəddin Tusi ən ağır vəziyyətdə belə, elmi irsdən əl çəkmir və axtarışlarını davam etdirərək, yeni-yeni əsərlər yazır. Hülakünün ismaililəri məğlub etməsindən sonra (1256-cı il) Tusi azadlığa çıxır.

Hülakü Tusi haqqında çox eşitmişdi və onun elmi biliyinə heyran idi. Ona görə də o, Tusini özünə məsləhətçi götürür. Tusi iqtisadiyyat və maliyyə məsələlərini gözəl bilirdi. Sarayın maliyyə məsələləri ilə bağlı problemlərini, adətən, Tusi həll edirdi. Bu da ona sarayda böyük şöhrət qazandırmışdı. Bundan istifadə edən Tusi Hülaküdə göy cisimləri və onların insanlara göstərdiyi təsir barədə böyük maraq oyada bildi. Nəticədə, Hülakü Tusinin Marağada göy cisimlərini tədqiq edən rəsədxana tikilməsi barədə xahişinə müsbət cavab verdi. Beləliklə, o dövrdə tayı-bərabəri olmayan bir rəsədxana inşa edildi. Nəsirəddin Tusinin hülakülərin Bağdada hücumunda da əsaslı rol oynaması barədə rəvayətlər vardır. Lakin son araşdırmalar göstərir ki, bu rəvayətlərin heç biri Nəsirəddin Tusinin əxlaqi və dini dünyagörüşlərinə uyğun gəlmir və daha çox uydurmaları xatırladır. Tusi Hülaküdən sonra onun yerinə keçən hökmdar Abakanın da məsləhətçisi olmuşdur. Hələ sağlığında ikən, "Alimlər alimi" çağırılan bu böyük insan 1274-cü ildə vəfat etmişdir.

Nəsirəddin Tusinin Sədrəddin Əli, Asiləddin Həsən və Fəxrəddin Əhməd adlı oğulları da atalarının yolunu davam etdirmiş və dövrün tanınmış elm adamlarından olmuşlar. Hər üç oğul dövlətdə müxtəlif vəzifələrdə çalışmışlar.

Türk dünyasının digər tanınmış simalarından olan Əvhədi Marağalı (1274-1338) "Dəhnamə" məsnəvisini (1306-cı il) Tusinin nəvəsi Hacı Ziyaəddin Yusif ibn Asiləddin Həsənə ithaf etmişdir.

Tusi nəslinin davamçıları sonralar Naxçıvana köçərək orada yaşamış və əhali arasında böyük hörmət və nüfuz sahibi olmuşlar. İran hökmdarı, milliyyətcə türk olan Şah Abbas Tusiyə böyük hörmət bəsləmişdir. Elə buna görə də o, Tusi nəslinin Ordubad ətrafında yaşamasını nəzərə alaraq, bölgənin bütün əhalisinin vergidən azad edilməsi barədə fərman imzalamışdı. Şah Abbasın verdiyi bu fərman XVII əsrdə Ordubadda inşa edilmiş böyük caminin qapısı üzərindəki daş kitabədə yazılmışdır.

### *Alimlər əbədiyyət yolçularıdır*

Dünyanın hər hansı bir ölkəsinin tərəqqisində, inkişaf edərək güclü dövlətə çevrilməsində alimlərin özünəməxsus rolu olub. Bu baxımdan bütün İslam dünyasının monqollar tərəfindən işğal edildiyi, şəhərlərin, mədəniyyət mərkəzlərinin dağıdıldığı, elmin tənəzzül dövrü keçirdiyi bir vaxtda Tusiyə monqol hökmdarı Hülakü tərəfindən yüksək qiymət verilməsi bir qədər inanılmaz idi. İlk dövrlərdə İslam dinini qəbul etməyən və ona düşmən münasibət bəsləyən monqol hökmdarları bu dinin dəyərlərinə qarşı sərt davranır, yüz illər boyu qurulan ən gözəl sənət əsərlərini məhv edir, tikililəri, məscidləri dağıdırdılar. Bütün bunlara baxmayaraq, Hülakü xanın elmə və elm adamlarına məhəbbəti, Tusi kimi böyük bir alimi özünə məsləhətçi götürməsi Şərq mədəniyyətinə qarşı olan hərəkətləri dayandırdı.

Tusi sonralar bununla bağlı yazmışdı: "Uca Allah Hülakünün ürəyini elmə məhəbbət nuru ilə işıqlandırdı. Bu nur mənim gələcək taleyimdə də böyük rol oynadı. Mən arzularımın reallaşdırılması üçün Hülakünün simasında böyük bir dayaq əldə etdim". Tusinin Hülakü və onun varisi Abakana məsləhətləri monqolların Şərq yürüşündə daha böyük qırğınların qarşısını aldı. Şübhəsiz ki, bütün bunlar Hülakünün ətrafında olanların da elmə və sənət əsərlərinə lazımi qiymət verməsinə gətirib çıxardı. Hülakündən sonra gələn hökmdarların, demək olar ki, hamısı elm adamlarına qiymət verməyə, hər hansı bir iş görərkən onlarla məsləhətləşməyə başladılar.

### *Dəyərli əsərlər*

Nəsirəddin Tusini dünyada tanıdan, onun günümüzdə belə aktuallığını itirməyən ölməz əsərləridir. Tusi alim kimi nəzəriyyəyə xüsusi önəm verirdi və əsərlərində dönə-dönə yazırdı ki, elmi kəşflərin ortaya çıxmasında nəzəriyyənin əhəmiyyəti çox böyükdür. Buna görə də çox vaxt Tusini "nəzəriyyələr ustadı" adlandırırlar. Bununla belə, o, nəzəriyyənin təcrübədə sınaqdan çıxarılmasının vacibliyini xüsusi qeyd edirdi. O, elmin inkişafını nəzəriyyə ilə təcrübənin vəhdətində gördüyünü tez-tez xatırladırdı.

Tusi ilahiyyata, fəlsəfəyə, siyasət və etikaya dair traktatlarında özünün dünyagörüşünü ifadə etmişdir. Mütəfəkkirin "İmamətə dair traktat" ("Risab fil-imam") və bir sıra başqa əsərlərində yalnız 12 imamı deyil, imam (dövlət başçısı) üçün lazımi səciyyəvi keyfiyyətləri ön plana çəkib. Onun fikrincə, imam-başçı hər hansı bir

hökmü verərkən, əvvəlcə, ətrafındakı elm adamları və müdriklərlə məsləhətləşməli, yalnız bundan sonra qərar qəbul etməlidir.

O: - "Hökmdar ədalətli qərar verməlidir. Hökmdar tərəfindən verilən ədalətsiz qərar dövlətin əsasına vurulan baltadır" - deyirdi. Nəsirəddin Tusinin fəlsəfəyə dair traktatlarında İbn Sinanın "İşarələr və qeydlər" kitabının şərhi də öz əksini tapıb. Ümumiyyətlə, Tusi İbn Sina və Bəhmənyar məktəbinin layiqli davamçılarından biri idi. Alimin özünəməxsus idrak nəzəriyyəsində dövrü üçün vacib hesab edilən bir çox suallara cavab verilib. Tusinin riyaziyyat, astronomiya və fizikanın inkişafında da böyük xidmətləri olub. Məsələn, onun "Zic Elxani" adlı əsərində planetlərin hərəkət trayektoriyaları və onların fırlanma sürətləri dəqiqliklə verilib. Alimin planetlərlə bağlı araşdırmaları XIX əsrin ortalarına kimi Avropa alimlərinin istinad etdikləri əsas mənbə olmuşdur.

Tusinin coğrafiya sahəsində də xidmətləri böyükdür. O, 256 şəhərin coğrafi koordinatları olan cədvəllər hazırlayıb. Bu cədvəllər Kolumbun müəllimi olan Toskanelliyə məlum idi. Kolumbun məhz bu cədvəllərə əsasən Amerikanı tapdığını, ancaq kəşfinin mahiyyətini anlaya bilmədiyi güman edilir. Tusinin bu cədvəlləri o qədər dəqiqdir ki, ondan uzun müddət istifadə edilib. Cədvəllər əvvəlcə Londonda (1652), sonra isə Oksfordda (1711) ərəb və latın dillərində çap edilib. Nəsirəddin Tusinin istedadlı tələbəsi və davamçısı azərbaycanlı mühəndis Kəriməddin Səlmasi məşhur alman alimi Martin Böhaymdan (1459-1507) iki əsr əvvəl qlobus hazırlamışdı. Bütün bunlar, Nəsirəddin Tusi tərəfindən türkün elmi zəkasının və təfəkkürünün yüksəkliyinin sübuta yetirilməsi demək idi.

Tusinin riyaziyyat və həndəsəyə dair əsərləri də elmin inkişafında böyük rol oynayıb. Məsələn, onun "Təhriri-Öqlidis" ("Evklidin şərhi") əsəri Avropada böyük şöhrət qazanmış və əvvəlcə, Romada ərəbcə (1594), sonra isə latın dilində (XVII əsrdə) çap edilib. Onun yazdığı bu əsər dövrünü ən azı 450-500 il qabaqlamışdı.

### *"Əxlaqi-Nasiri" və təlim tərbiyə*

Tusiyə şöhrət gətirən əsərlərindən biri də onun böyük ilhamla qələmə aldığı "Əxlaqi-Nasiri" əsəridir. Bu əsərin yazılması İsmaili valisi Nasir Mühtəşəmin adı ilə bağlıdır. Alim əsərin girişinə yazdığı ön sözündə: - "Mühtəşəm məndən Miskəveyhin "Kitab-ət-Təharət" ("Təhzibül əxlaq") əsərini ərəbcədən farscaya çevirməyimi xahiş etdi. Amma bu kitabı tərcümə edəndə onun özünəməxsusluğu itib gedəcəkdi. Mən bunu Mühtəşəmə anlatdım. Mühtəşəm də bunu tərəddüdlə də olsa qəbul etdi", - deyə yazır. O, Mühtəşəmə həmin əsərin mahiyyətinə uyğun olan kitab yazmağın vacibliyini də bildirir. Bundan sonra Nasir ondan adıçəkilən əsərə bərabər ola biləcək bir əsər yazmasını xahiş edir. Tusi də xahişi nəzərə alaraq, "Əxlaqi-Nasiri" adlı ölməz bir əsər yazır. Kitabın əxlaq fəlsəfəsinə aid hissəsi "Kitab-ət Təharət"in yeni formada təkrarıdır. Amma kitabda Tusi Miskəveyhdən fərqli olaraq, özünün əxlaqi

dünyagörüşlərini dövrünün Qəzali kimi böyük alimlərinin və sufilərin dünya görüşləri ilə uzlaşdırmağa çalışıb.

Tusi "Əxlaqi-Nasiri"nin ev idarəsi və siyasət fəlsəfəsinə dair bölmələrində İbn Sina və Fərabinin eyni mövzuda yazdıqları əsərlərindən istifadə edib. Tusi bu əsəri üç dəfə yazıb. Birinci dəfə o, qeyd etdiyimiz kimi, Mühtəsəmin xahişi ilə (1232-1233-cü illər) yazıb. Bundan 22 il sonra Tusi əsəri yenidən işləyib. Ölümündən bir az əvvəl təxminən 1272-1273-cü illərdə isə üçüncü dəfə yazıb.

Tusi bu əsərində insanın cəmiyyətdə davranışının (istər ailədə, istərsə də ətrafındakılarla münasibətdə) kriteriyalarını verib. Qeyd edək ki, onun ailə və cəmiyyət haqqında fikirləri o qədər güclü məntiqi əsaslara söykənirdi ki, yazdığı bu əsər yüz illərlə nəinki Şərqdə, həm də Qərbdə sevilə-sevilə oxunmuşdur.

## *Ailə qurma və tərbiyə məsələləri*

"Əxlaqi-Nasiri" əsəri 3 məqalədən və 30 fəsildən ibarətdir. Əsərdə bəhs edilən əsas məsələlərdən biri, ailənin qurulması ilə bağlıdır. Tusinin ailənin qurulması işinə xüsusi əhəmiyyət verməsi heç də təsadüfi deyil. O, ailəni hər bir cəmiyyətin əsas dayağı adlandıraraq: - "Ailə nə qədər sağlam və möhkəm təməllər üzərində qurulsa, dövlət də o qədər möhkəm olar" - yazır. Tusiyə görə, evlənmənin iki səbəbi olmalıdır; malın mühafizəsi və nəslin davamı. Alim, yaxşı tərbiyə görən qadını ərin silahdaşı adlandırır. Qadının övlad tərbiyəsində böyük rol oynadığını qeyd edən Tusi onun dinimizi yaxşı bilməsini, ailədə fədakarlıq etməsini, ən ağır vəziyyətdə belə, səbrli olmasını əsas şərtlərdən hesab edir. O, qadınlarda zahiri gözəlliklə daxili gözəlliyin vəhdətdə olmasını arzulayır.

Tusiyə görə, ər-arvad arasında əlaqələr üç əsas prinsip üzərində qurulmalıdır. Birincisi, qadın ərinin hər sözünə diqqətlə yanaşmalı, onun hər sözünə əməl etməlidir. Bundan əlavə, qadın ərinə vəfalı olmalı, hər hansı dərdini onunla bölüşməli, ən ağır vəziyyətlərdə belə, səbr və təmkinini qorumağı bacarmalıdır. İkincisi, kişi qadının bütün ehtiyaclarını ödəməli və ailəsinə ürəkdən bağlı olmalıdır. Üçüncüsü, qadın evin idarə edilməsində bacarıqlı olmalı, uşaqların tərbiyəsində həm ana, həm də tərbiyəçi kimi çıxış etməlidir.

Bundan əlavə, Tusi adı çəkilən əsərində uşaqların tərbiyəsi ilə bağlı bu gün də əhəmiyyətini itirməyən dəyərli məsləhətlər verib. Məsələn, Tusiyə görə, valideyn, ilk növbədə, uşaqlarını kiçik yaşlarından əməyə hörmət ruhunda tərbiyə etməli, onların tənbəl həyat tərzi keçirmələrinə imkan verməməlidir.

Tusi deyirdi: "Uşaq nə qədər çevik, hərəkətli olsa, onun enerjisindən düzgün istifadə edilsə, onda o, o qədər sağlam həyat tərzi keçirəcək və ondan yaxşı əsgər, bacarıqlı sərkərdə çıxacaq, o düşdüyü ən ağır vəziyyəti belə, düzgün qiymətləndirərək vəziyyətdən çıxış yolu tapmağı bacaracaq".

Təbii ki, Tusi övlad tərbiyəsinin əsas təməlini onda özündən böyüklərə hörmət etməyin formalaşdırılmasında görürdü. O deyirdi ki, övlad ailədə, əvvəlcə,

valideynlərinə və ailənin digər üzvlərinə hörmət etməyin müqəddəs vəzifə olduğunu dərk etməlidir. Tusi uşağı yerli-yersiz danlamağın əleyhinə idi. O deyirdi ki, uşaq nə qədər çox danlansa, o qədər buna adət edəcək. Böyük mütəfəkkir uşağı çox danlamaqdansa onu başa salmağın tərəfdarı idi. O, uşağın adət-ənənələrə hörmət ruhunda böyüdülməsini də çox mühüm şərtlərdən biri hesab edirdi. "Əxlaqi-Nasiri"də oğlan uşaqlarının qızlar kimi bəzək-düzəyə öyrədilməsi yolverilməz hesab edilir. Bundan əlavə, uşaqların kiçik yaşlarından dini və elmə məhəbbət ruhunda tərbiyə edilməsi, onlara bunun üçün lazım olan şəraitin yaradılması da valideynlərin qarşısında əsas şərtlərdən biri kimi qoyulur.

### *Marağa rəsədxanası*

Nəsirəddin Tusinin şah əsərlərindən biri də Marağa rəsədxanası hesab edilir. Marağa rəsədxanasının qurulması o dövrdə nəinki Şərqdə, həm də bütün dünyada böyük bir hadisə idi. Tusinin ən böyük xidmətlərindən biri də ondan ibarət idi ki, o, monqolların, qarşılarına çıxan bütün mədəniyyət abidələrini dağıtdığı bir vaxtda, monqol xanı Hülaküdə elmə məhəbbət oyatmağı bacarmışdı. Belə ki, Tusinin istəyi ilə Hülakü xan 1258-ci ildə Marağa şəhəri yaxınlığında rəsədxana inşa edilməsi barədə göstəriş vermişdi. Hülakü xan rəsədxanaya rəhbərliyi də Tusiyə tapşırmış və bunun üçün ona hər cür səlahiyyət vermişdi.

Qeyd edək ki, rəsədxana və onun ətrafında inşa ediləcək binaların layihəsini Tusi şəxsən özü vermişdi. Rəsədxana ətrafında inşa ediləcək binalar vahid kompleks təşkil etməli idi. Binalar iki hissəyə ayrılmışdı. 13 tikilidən ibarət olacaq rəsədxana kompleksi elmi tədqiqatların aparılmasına yardım edəcək binalardan, həmçinin, mədrəsə, kitabxana və dükanlarla vəhdət təşkil etməli idi. Rəsədxananın inşasına o vaxt üçün çox yüksək miqdarda 30 min dinar qızıl pul ayrılmışdı.

Kompleksin inşaat işləri 1271-ci ildə başa çatdırıldı. Amma binaların inşa edilməsini və onun texniki vasitələrlə təminini hələ işin yarısı saymaq olardı. Rəsədxananın fəaliyyəti üçün onun elmi kadrlarla təmin edilməsi ən vacib məsələlərdən idi. Ona görə də Tusi öncədən Hülakü və onun yerinə keçən Abaqa xanın razılığı və köməyi ilə Şərqin astronomiya sahəsində tanınmış alimlərini rəsədxananın fəaliyyətinə cəlb etmişdi. Marağa rəsədxanasında göy cisimləri ilə bağlı hazırlanan astronomik cədvəllər 400 il ərzində Avropada qurulan bütün rəsədxanalarda əsas qaynaq kimi istifadə edilmişdir. Rəsədxanada apardığı tədqiqatlar nəticəsində Tusi, ona dünya şöhrəti gətirən bir sıra ölməz əsərlərini yazdı.

Həmçinin "Zic-Elxani" adlı tədqiqat əsəri daha məşhurdur. "Zic-Elxani"də riyaziyyata, triqonometriyaya, astronomiyaya və coğrafiyaya aid çoxlu cədvəllər verilib. Bundan əlavə, əsərdə müxtəlif elmi təqvimlər, planetlərin hərəkət trayektoriyalarını göstərən və o dövr üçün olduqca yüksək səviyyədə olan riyazi hesablamalar da öz əksini tapıb. Bundan əlavə, "Zic Elxani"nin başlanğıc hissəsində Çingiz xandan başlayaraq Hülakü xanadək olan tarix xronoloji qaydada və izahatlarla

verilib. Ümumiyyətlə, Marağa rəsədxanası o dövrdə Şərqdə elmin və mədəniyyətin inkişaf etdirilməsində müasir məşhur elm mərkəzlərinin belə, həsəd apara biləcəyi bir iş görmüşdür. Bu rəsədxananın nəzdində nəinki Şərqdə, həm də bütün Avropada tayı-bərabəri olmayan bir kitabxana olmuşdur. Həmin kitabxanada ən qədim elmi və ədəbi bədii əsərlər toplanmışdı. Rəsədxana ətrafındakı mədrəsələrdə uşaqlar tanınmış alimlərdən dərs alırdılar. Necə deyərlər, Şərqin elm və mədəniyyət mərkəzi, faktiki olaraq, Bağdaddan Marağaya köçmüşdü. Tusinin uzaqgörənliyi sayəsində Marağa türk-İslam mədəniyyətinin beşiyi halına gəlmişdi. Təsadüfi deyil ki, bu gün də Marağanın adı dünyanın tanınmış elm adamları tərəfindən hörmətlə çəkilir. Marağa rəsədxanası bu gün də Şərqdə və Avropa ölkələrindəki rəsədxanalar üçün bir örnək elm mərkəzi olaraq qalır.

### *Kamil insan anlayışı*

Tusi də digər görkəmli şəxsiyyətlər kimi cəmiyyətdə ideal insan axtarışlarına cavab tapmağa çalışıb. Bu məqsədlə o, insanın ideal səviyyəyə yüksəlişi üçün bəzi şərtlərin vacibliyini qeyd edir. Məsələn; Tusiyə görə, ideal insanın formalaşdırılması üçün əvvəla onun yaşadığı cəmiyyət ideal olmalı və yüksək səviyyədə inkişaf etməlidir. Araşdırmalara görə, ideal cəmiyyət formalaşdırılması üçün on illərlə vaxt lazımdır. Həmin yol isə insanın mənən kamillik zirvəsinə yüksəlişindən keçir. Tusiyə görə, Allah tərəfindən bütün yaradılmışların ən kamili olan insanın qarşısında ya yaxşı, ya da onu fəlakətlərə sürükləyən pis həyat yolunu seçmək durur. Alimin fikrincə, insan nəfsini nə qədər təmiz saxlasa, özünün bu dünyaya yaxşılıq toxumu səpmək və Uca Yaradana xidmət üçün gəldiyini dərindən dərk edər. Əgər fəaliyyətini də bunun üzərində qursa, könül rahatlığı ilə bu dünyadan köç edər və əbədi səadəti həyatda ikən qazanmış olar. Tusi hər bir insanın Uca Yaradan tərəfindən onun özünəməxsus xüsusiyyətləri ilə yaradıldığını da xüsusi qeyd edib. Tusiyə görə, hər bir insanın daxilində həm onu fəlakətlərə sürükləyən mənfi, həm də müsbət xüsusiyyətlər mövcuddur. İnsan nəfsinin qulu olmamalı, yaxşını pisdən ayırmağı bacarmalıdır.

Tusi yazırdı: "İnsanların hamısı özlərinin mənfi xüsusiyyətlərini aradan qaldıra bilər. Bunun üçün onlar haqq yoluna qayıtmalı, Uca Yaradanın bizə bəxş etdiyi ağıl və təfəkkürdən bacarıqla istifadə etməlidirlər. Əgər insan bu dünyaya nə üçün gəldiyini anlaya bilmirsə, deməli, o, özü özünü anlaya, haqq yoluna qayıda bilməyəcək. Ağıl insana ona görə verilib ki, nəyin pis, nəyin yaxşı olduğunu ayırd edə bilsin. Kim bu dünyanın müvəqqəti olduğunu dərindən dərk edə bilsə, o, dünya malına aldanmayacaq və nəfsini pisliklərdən qoruya biləcək. Nəfsini saxlaya bilən, onun qulu olmaq təhlükəsindən özünü sığortalayan hər bir insan haqq divanına alnıaçıq və üzüağ gedəcək".

Tusi eyni zamanda insanın ideallaşmasına mane olan səbəbləri də göstərmişdir. Onun fikrincə, insanın kamil, ideal şəxs kimi formalaşmasına, ilk növbədə, heyvani arzu və istəkləri mane olur. Böyük mütəfəkkir belə hesab edir ki, yaşadığı dünyanın

maddiyyatına aldanan insan həyatın dibinə yuvarlanar və özü də bilmədən səadətini məhv edər. Tusi: "İnsan nəfsinin qulu olsa və yaşamağın ləzzətini var-dövlətdə, həyatını kef içində keçirməkdə görsə, onda heyvan səviyyəsinə enəcək və insanlığa məxsus olan bütün xüsusiyyətlərini itirəcəkdir", - deyir. Alimlər alimi şəhvəti və paxıllığı insan üçün ən böyük heyvani xüsusiyyət hesab edir. Tusiyə görə, qəlbində Allah sevgisi olan, ancaq bu sevgidən düzgün istifadə edə bilməyən insanın fəlakəti də buradan başlayır. O: "Əgər sən həyatını Uca Allahın bizə buyurduğu kimi qurmaq əvəzinə, özünü ətrafındakılara uyğunlaşdırmaq istəsən və onlar kimi yaşamaq fikrinə düşsən, onda özünə qənim kəsilmiş olacaqsan", - deyir.

Tusi insanın haqq yolundan dönərək dünya malına meyl etməsinin arxasında məhz onun cəmiyyətlə ayaqlaşmaq istəməsinin dayandığını göstərir. O, insanın kamilləşməsinə aparan yolun asan olmadığını da dönə-dönə qeyd edir və kamilliyə gedən yolu da göstərir. Böyük alim "Aysaf-ul-Əşrəf" əsərində yazır: "İnsan, hər şeydən öncə, kamilliyə gedən yolda Uca Allaha sığınmalı, bütün fəaliyyətini də bunun üzərində qurmalıdır. O, həqiqəti sevməli, səbrli olmalı, sağlam həyat tərzi keçirməli, yaxşılıq etməyi özünün həyat idealına çevirməlidir. Belə olsa, insan əbədilik səadətini tapmış olacaq". İnsanın kamilləşməsi üçün mənəvi ehtiyaclarının ödənilməsinin də əsas şərtlərdən biri olduğunu deyən mütəfəkkir, bunun üçün elm öyrənmənin vacib şərt daşıdığını da söyləyir. Ona görə də Tusi insanın kamilləşməsində iki faktı önə çəkir: elm və əməl. İnsan elm öyrənməklə özünü və ətrafını tanımış olur, həqiqətə gedən yolun qapısını açır və beləliklə də, özünə mənəvi bir rahatlıq tapır. İnsanın elmi və əməli fəaliyyəti bir-birini tamamlayanda o, kamillik zirvəsini fəth edərək əbədi bir səadətə çatır.

### *Tusi və cəmiyyət*

Hər bir cəmiyyətin inkişafında onu təşkil edən toplumların böyük rolu var. Bu baxımdan, hər hansı cəmiyyət daxilindəki saflığı, mənəvi kamilliyi qoruyub saxlamağı, ən ağır zamanlarda belə, bir-birinin yardımına gəlməyi bacarmalıdır. Cəmiyyətdəki insanları fərqləndirən xüsusiyyətlərdən biri onun daxili vəhdəti ilə əlaqədardır. Çünki insanların hamısı bir-birinə möhtacdır. Tusi xatırladır ki, Allah insanları xəlq edərkən bütün bu amilləri nəzərə alaraq, nizamlı şəkildə fəaliyyət göstərən bir cəmiyyət yaradıb. Cəmiyyətdəki işbirliyini qoruyub saxlamaq, onun daxilində qarışıqlıq salınmasına yol verməmək üçün müəyyən tədbirlərin həyata keçirilməsinə ehtiyac duyulur. O, bunu siyasət adlandırır. Tusi siyasətin əsasında 4 amilin dayandığını qeyd edir. Bunlar aşağıdakılardan ibarətdir: ölkə, zəfər, şərəf və cəmiyyət. Bu 4 mühüm ünsürün mahiyyətini tam şəkildə açan alimlər alimi hər bir ölkənin idarə edilməsi üçün bu ilkin şərtləri siyasətlər siyasəti adlandırır. Və nəhayət, Tusi hər bir cəmiyyətin yüksək inkişafa nail ola bilməsini onun daxilində insanların bir-biriləri ilə yardımlaşmalarında görür.

Alimin fikrincə, cəmiyyətdəki insanlar nə qədər bir-birinin qeydinə qalsa, dövlət bir o qədər inkişaf edər və qüdrətli olar. Tusi mühiti fəzilətli və fəzilətsiz (ləyaqətli və ləyaqətsiz) cəmiyyətlərə bölür. O deyir ki, fəzilətli cəmiyyətlərə haqq və ədalət yolunu tutanlar aiddir. Belə cəmiyyətlər həmişə yüksək inkişafa nail olurlar. Onların sayı, adətən, çox olmur. Fəzilətsiz cəmiyyətlər isə üç yerə ayrılır: cahil, mənəvi cəhətdən pozulmuş və zillət içində olanlar. Tusiyə görə, istər fəzilətli, istərsə də fəzilətsiz cəmiyyətlər enmə və yüksəliş dövrü keçirirlər. Alim yazır ki, hər bir cəmiyyətin aynasını təşkil edən dövlətin uzun müddət yaşaya bilməsi onun ədalətlə idarə edilməsindən asılıdır. Hər bir dövlət onu təşkil edən 4 ünsürdən ibarətdir: ziyalılar qələm əhli, əsgərlər qılınc əhli, bürokratlar məmurlar, əkinçilər. Tusi cəmiyyətdəki bu 4 təbəqəni təbiətdəki 4 ünsürlə müqayisə edir. O, alim və qələm əhlini suya, əsgərləri atəşə, məmurları havaya, əkinçiləri isə torpağa bənzədərək yazır: "Bu 4 qrup birlikdə fəaliyyət göstərsə, onda yüksək inkişaf etmiş cəmiyyət və insanları xoşbəxt edən bir sistem ortaya çıxar".

### *Tusi unudulmaz şəxsiyyətlərdəndir*

Azərbaycan və dünya türklərinin iftixarı olan Tusinin bəşəri mədəniyyətin inkişafında əvəzsiz xidmətləri olmuşdur. Onun böyüklüyü və geniş təfəkkür sahibi olması barədə saysız-hesabsız əsərlər yazılıb. Bunların heç də hamısı həqiqətə uyğun deyil. Bununla belə, Tusi haqqında yazılanlar içərisində təkzib edilməsi qeyri-mümkün olan bir həqiqət var. Bu da Tusinin zamana və məkana sığmayan, İslam dünyasının məhəbbətini qazanmış olan şəxslərdən biri olmasıdır.

O, mütəfəkkir, eyni zamanda, bacarıqlı bir dövlət xadimidir. Təsadüfi deyil ki, bütün dövrlərin ən böyük alimləri Tusini məhəbbətlə yad edərək, onu "Xoca Tusi", "bəşəriyyətin ustadı", "on birinci ağıl", filosoflar isə "üçüncü müəllim" adlandırıblar. Tusi ömrünün böyük bir hissəsini həbsxanada yaşayıb. Yəqin ki, belə bir həyat yaşamasaydı, o daha çox uğurlar qazanardı. Bununla belə, Tusi ölməz sənət əsərləri meydana gətirə bilmişdir. Tusi səbrli bir insan olmuşdur. Əgər onda bu səbr olmasaydı, o uzun və ağır, məşəqqətli həyatdan sonra yeni elmi zirvələr fəth edə və alimlər alimi zirvəsinə yüksələ bilməzdi. O, əslində, cəmiyyətdə aradığı kamil insanı özünün simasında əks etdirib. Tusi ideal insan olduğu qədər də ideal bir alim idi. Onu digərlərindən fərqləndirən əsas xüsusiyyəti yorulmaq bilmədən çalışması idi. Bu isə Nəsirəddin Tusinin həyatı sevməsindən irəli gəlirdi. O yaxşı bilirdi ki, yazdığı hər kəlmə özündən sonra gələnlər üçün elmin yeni zirvələrini fəth etməkdə mayak rolunu oynayacaq. Türk-İslam dünyasının böyük oğlunu ölməzliyə qovuşduran böyüklük budur. O, bu gün də ideal insan, dahi şəxsiyyət olaraq qalır və əbədiyyətə qədər də belə olacaq.

## HƏQİQƏT AŞİQİ, ELM DƏRYASI

### *ŞƏMS TƏBRİZİ*



Konya şəhərindəki Şəms-Parkda qədim və insana hüznlü təsir bağışlayan bir məscid türbə var. İlin bütün fəsillərində hər gün dolub-boşalan Mövlana türbəsindən on dəqiqəlik məsafədə olan bu məkanın yerini bilən və onu ziyarət edənlərin sayı isə olduqca azdır. Haqqında danışdığımız türbə bir vaxtlar böyük Mövlananı həqiqətin zirvəsinə yüksəldən və onun bütün dünyada məşhurlaşmasında önəmli rol oynayan dahi bir insanındır. Bu dahi şəxs türk dünyasının böyük oğlu, Azərbaycanın bağrından qoparaq Anadolunu doğma anası kimi qucaqlayan və bu iki qədim türk yurdu arasında mənəvi bir körpüyə çevrilən Şəms Təbrizidir.

Əslində, bu gün bəziləri tərəfindən unudulmuş kimi görünsə də, onu tanıyanların, onu yad edənlərin hamısı, o cümlədən, mövləvilərin bir çoxu, əvvəlcə, Şəms Təbrizinin türbəsini ziyarət edir, sonra Mövlana dərgahına üz tuturlar. "Şəms"in ərəbcədən tərcüməsi "günəş" deməkdir. O elə adı kimi türk-İslam dünyası üfüqlərində doğan bir həqiqət və elm günəşi idi. Elə bir günəş ki, öz sevgisi ilə bu gün də həqiqət aşiqlərinin qəlblərini sonsuz nura qərq edir, qatı zülmətləri əridir. Məscid türbənin içərisində bir sənduqə (keçmişdə məzarların üzərlərinə sinədaşı əvəzinə qoyulan və üstündə mərhumla bağlı yazılar olan uzun daş plitə) diqqəti cəlb edir. Sanki bu sənduqə türbədə uyuyan şəxsin yerinə insanla dil açıb danışmaq, söhbətləşmək istəyir. Sənduqənin içində, həqiqətən də, Şəms Təbrizi dəfn edilib, yoxsa o boşdur? Bunu, hələlik, heç kəs bilmir. Bilinən bircə şey varsa, o da sənduqə sahibinin onu sevən insanların qəlbində yaşamasıdır. Qəribə də olsa deyək ki, bir neçə yerdə Şəms Təbrizi türbəsi vardır. Məsələn, Nicdəki (Türkiyə) Kəsikbaş türbəsinin də Şəms Təbriziyə aid olduğu ehtimal edilir. Bundan əlavə, Təbrizdə Gəcil adlanan məzarlıqda, Xoy şəhərində və Pakistanın Multon şəhərində də Şəms Təbriziyə aid türbələr mövcuddur. Əlavə edək ki, Şəms Təbrizi böyük türk şairi Yunus Əmrədən sonra qəbri bir neçə yerdə olan ikinci böyük şəxslərdəndir. Şəms Təbrizinin hələ sağlığında ikən xalqın sevimlisinə çevrilməsi onun həyatı haqqında saysız-hesabsız rəvayətlərin ortaya çıxmasına səbəb olub. Onun şöhrəti Pakistana qədər gedib çıxıb və o, bu ölkədə də Azərbaycandakı və Anadoludakı qədər sevilib.

Pakistanda Şəms Təbrizi ilə bağlı dolaşan rəvayətlərdən birində deyilir ki, o, bir gecəyarısı gizlicə Konyadan ayrılmış və əvvəlcə Təbrizə, oradan da Hindistana getmişdir. Bir müddət Hindistandakı meşələrdə pərişan halda dolaşmış, sonra Multon şəhərinə gəlmişdir. Multonda Şəms Təbrizi dərhal insanların ziyarət etdikləri müqəddəs zata çevrilmişdir. Deyilənə görə, onu Multonda o qədər sevirmişlər ki,

Şəms Təbrizi oradan getmək istəyəndə insanlar onun ayaqlarına döşənərək yolunu kəsmiş və hönkür-hönkür ağlamışlar.

Şəms Təbrizi həqiqət dəryasının sultanı, dövrünün bütün alimlərinin rəhbəri idi. O, Şeyx Rukniddin Şücasi həzrətlərinin ən öndə gedən dərvişlərindən, onun ən layiqli davamçılarından sayılmışdır.

### *Təbrizdən bir günəş doğuldu*

Şəms Təbrizi haqqında bizə gəlib çatan məlumatlar onun həyatı haqqında tam təsəvvür əldə etməyə imkan verir. O, 1164-cü ildə Təbrizdə Məlikdad oğlu Əli adlı hörmətli bir şəxsin ailəsində dünyaya gəlib. Adı Məhəmməd Şəmsəddin olan bu şəxs hələ uşaq ikən qeyri-adi istedadı ilə hamını heyrətdə qoyan elm sahibi kimi tanınmağa başlamışdı. Onun adı həmin dövrdə Təbrizdə dildən-dilə dolaşırdı. Məhəmməd Şəmsəddin elmin bütün sahələrinə dərindən bələd idi. Xüsusilə, ilahi elmlər sahəsində ona tay tutula biləcək bir ürfan sahibi yox idi. Şəms Təbrizi özü haqqında belə demişdi: "Dünyanın hamısı bir tərəfdə, mən isə digər tərəfdə olsam da, verilən sualların hamısına cavab verərəm. Mənim cavab verə bilməyəcəyim sual dünyada yoxdur".

O, gəncliyində bir müddət Təbrizdə Şeyx Əbubəkir adlı tanınmış bir şəxsin məclislərində oturmağı və ona sevə-sevə qulaq asmağı xoşlayıb. Sonralar Şəms Təbrizi "Məqalət" adlı əsərində yazır ki, şeyx onun elmi dünyagörüşünü dəyərləndirə, onda olan ilahi sevgini və həqiqət aşiqi ruhunu anlaya, duya bilmədi. O, bir müddət müəllimlik, müftilik etmişdi. Çox bildiyi üçün ona Kamili Təbrizi, çox gəzdiyi üçünsə Şəmsəddini pərəndə, yəni uçan Şəmsəddin deyirdilər. Onun elmə məhəbbəti o qədər sonsuz idi ki, bu, onun atası ilə arasında anlaşılmazlığa gətirib çıxarmışdı. Bununla bağlı Şəms Təbrizi yazır ki, onun bir otağa çəkilərək günlərlə ac-susuz qalması atasının narazılığına səbəb olmuşdu.

Təbrizi: "Bunu görən atam məndən soruşdu ki, oğul, sənin bu hərəkətlərinin sonu haraya gedib çıxacaq? Mən isə atama cavabımda dedim ki, səninlə mənim aramda olan anlaşmazlıq, altına qaz yumurtası qoyulan kürt toyuğu xatırladır. Toyuq qaz yumurtasından çıxan cücələri ilə çay kənarına gedəndə cücələr suya atılaraq üzməyə başlayırlar. Bunu görən kürt toyuq cücələrinin boğulduğunu düşünərək başlayır haray salmağa. Halbuki, cücələr qaz yumurtasından çıxdıqları üçün suda üzür və boğulmurdular. İndi, ata, bizim aramızdakı fərq də bax, belədir", - dedim. Təbrizi elm dəryası idi və məclislərdə o qədər şirin danışırdı ki, saatlarla oturaraq onu dinləyir, ancaq vaxtın necə ötüb keçdiyini hiss etmirdilər. O, hazırcavab idi və hər hansı bir suala o qədər məntiqli cavab verirdi ki, istər-istəməz onun dediklərini qəbul etməyə məcbur olurdular. O dövrdə Təbriz əhli: "Bizdən də dünyaya bir günəş doğuldu, onun adı Məhəmməd Şəmsəddindir", - deyə bu şəxslə öyünərdilər.

## *Mövlana ilə tanışlıq*

Uca Allaha bütün varlığı ilə bağlı olan Şəms Təbrizi bir gecə yuxusunda ona bir nəfər övliyanın, vəlinin dost olaraq verildiyini görür. Bir müddət sonra o, bu yuxunu yenidən görür. Ona bildirirlər ki, bu vəli (övliya) Rum (Anadolu) ölkəsindədir. Amma vəlinin kim olduğunu ona söyləmirlər. Bunu eşidən Şəms Təbrizi gecə-gündüz dua edir ki, bu zatın kimliyini ona bildirsinlər. Onun gecə-gündüz etdiyi dua Haqq sahibinə yetişir və bir gecə yuxusunda ondan soruşurlar ki, dostunu sənə göstərsək, onda təşəkkür olaraq nə ortaya qoyacaqsan? Şəms də: "Başımı", - deyə cavab verir. Bu zaman ona deyirlər ki, dünyada Mövlana Rumi həzrətlərindən başqa, sənin şərəfli dostun yoxdur. Bundan sonra Təbrizi dəfələrlə Anadoluya Ruminin yaşadığı Konyaya getmək istəyir. Ancaq hər dəfə də ona məlum olmayan səbəbdən bu iş baş tutmur. Nəhayət, 1244-cü ilin oktyabr ayında Təbrizi Konyaya gəlir. Ertəsi gün qaldığı otağın açarını boynundan asaraq bazarı dolaşmağa başlayır. İkindi vaxtı qatıra minən birisinin bir neçə adamın müşayiəti ilə gəldiyini görür. Dərhal anlayır ki, axtardığını tapıb: bu zat Mövlana Rumidir. Dərhal o, qatırın önünə keçərək kəskin baxışlarla soruşur: "Sən Bəlhli Baha Vələddin oğlu Mövlana Cəlaləddinsənmi?" Mövlana: "Bəli", - deyə cavab verir. Onda Şəms Təbrizi Mövlanaya deyir ki, ey müsəlmanların imamı, həll edə bilmədiyim bir çətin işim var. Sizcə, Həzrəti Məhəmməd böyükdür, yoxsa Bəyazid Bistami? Mövlana, əvvəlcə, ona verilən bu sualdan çaşıb qalır, sonra isə özünü ələ alaraq: "Bu nə sualdır verirsən? Təbii ki, Allahın elçisi Həzrəti Məhəmməd bütün yaradılanların ən böyüyüdür", - deyə ona cavab verir. Təbrizi isə: "Elə isə, onda nə üçün bu qədər böyük olmasına baxmayaraq, Peyğəmbər Əfəndimiz dedi ki, ya Rəbb, biz səni tənzih edirik, biz səni layiq olduğun qədərilə bilmədik", - deyə buyurarkən, Bəyazid: "Mən özümü tənzih edərəm. Mənim ad-sanım çox ucadır, çünki cəsədimin hər zərrəsində Allahdan başqa varlıq yoxdur", - deyir. Mövlana isə Şəmsə belə bir cavab verir: "Həzrəti Məhəmməd insanların ən üstünü olaraq istedadı ölçüsündə bir susuzluq hiss edirdi. Bunun üçün də o, susuzluqdan danışırdı. O, hər gün saysız məqamlar keçirir, hər məqamı keçdikcə də əvvəlki bilgi və məqamına istiğfar edir, daha çox yaxınlıq istəyirdi. Bəyazid isə bir qurtum su üçün susuzluqdan danışmağa başladı. Yetişdiyi ilk məqamın sərxoşluğuna qapılaraq özünü unutdu və o məqamda da qalaraq bu sözləri söylədi".

Bu cavabı eşidəndə Şəms Təbrizi: "Allah" deyərək yerə yıxıldı. Mövlana dərhal yanındakılara tapşırdı ki, onu yerdən qaldırıb mədrəsəyə aparsınlar. Mədrəsədə onlar arasında Uca Yaradan və onun insanlara sonsuz sevgi və mərhəməti barədə qəlbləri cuşa gətirən bir söhbət oldu. Bu söhbət onları o qədər məst etmişdi ki, sonda iki böyük həqiqət aşiqi mədrəsədə ayrıca bir otağa çəkilərək, aylarca təkbətək söhbət etməyə başladılar. Mövlana da illərlə bundan əvvəl Şeyx Bürhanəddinin ona xəbər verdiyi könül dostuna qovuşmuşdu. Onların bu dostluğu bir həyat imtahanına dönmüşdü. Şəms Mövlanaya ən dəyərli adamlarının, o cümlədən, öz atasının kitablarını belə oxumağa icazə verməzdi. O, Mövlananın dəyər verdiyi bütün

kitablarını bir-bir hovuza atmışdı. Daha sonra o, Mövlanaya ən yaxın adamları ilə belə danışmağı qadağan etdi. Şəms Təbrizi hətta Mövlanaya mədrəsəyə getməyə, şagirdlərinə dərs deməyə belə icazə vermədi. Amma nə qədər qəribə olsa da, Mövlana bu insana Şəms Təbriziyə o qədər məhəbbətlə bağlanmışdı ki, bütün bunları mərdliklə qəbul edirdi. Nəhayət, Təbrizi Mövlananı daha ağır bir imtahana çəkmək qərarına gəldi. O, Mövlanaya darıxdığını bildirərək, ondan gözəl bir qız tapmasını istədi. Mövlana buna cavab olaraq, gedib ona gözəllikdə tayı-bərabəri olmayan öz həyat yoldaşını gətirdi. Şəms Təbrizi bu zaman dedi: "Bu mənim bacımdır. Mənə xidmət edəcək bir oğlan uşağı gətir".

Şəms bu dəfə: "Bu mənim qəlbimin parçası oğlumdur, indi şərab olsaydı, onu su yerinə içərdim", - deyə Mövlananı bir daha imtahana çəkir. Mövlana bunu eşidəndə sakitcə yəhudilər yaşayan məhəlləyə gedərək, oradan bir tuluq şərab alıb Şəms Təbriziyə verir. Dostu onun bu itaətini görəndə heyrətdən özünü saxlaya bilməyib: "Yeri-göyü yaradan Uca Allaha and içirəm ki, sənin kimi saf qəlbli bir insan dünyaya gəlməyib və gəlməyəcək. Mən səni elə bir imtahana çəkdim ki, ona nəinki sən, heç dağlar da tab gətirməzdi", - deyir. Təbrizinin özünü də Konyada dəfələrlə imtahana çəkmişlər. Məsələn; bir dəfə ondan əynindəki gözəl əbasını istəmişlər. O əbasını çıxarıb verərkən, bu dəfə ondan evini, var-dövlətini istəmiş və onun şəhərdən çıxıb getməsini tələb etmişlər. Təbrizi də tərəddüd etmədən ondan istənilən bütün şeyləri vermiş və şəhərdən çıxıb getmək istəmişdi. Ancaq onu imtahana çəkənlər dərhal Şəms Təbrizinin bu mərdliyi qarşısında diz çökərək ayaqlarına düşmüşlər. Bir dəfə isə Şəms Təbrizi özü Hüsaməddin Çələbi adlı birisindən pul istəyib. Hüsaməddin dərhal bütün var-dövlətini gətirərək ona verir. Təbrizi onun gətirdiyi var-dövləti geri qaytarır. Bunu görən Çələbi israrla ondan, heç olmasa, bir dirhəm də olsa götürməsini rica edir. Şəms Təbrizi onu sındırmamaq üçün bircə dirhəm götürür. Bu, onun həyatı boyu başqa bir insandan götürdüyü yeganə dirhəm olur.

## *Fitnələr ayrılıq gətirir*

Mövlana və Şəms Təbrizinin bir-birlərinə könüldən, Allah eşqinə bağlanması Konyadakı bəzi adamlar tərəfindən narahatçılıqla qarşılanır. Onlar həmişə Mövlananı öz aralarında görməyə, onun şirin söhbətlərinə qulaq asmağa adət etmişdilər. Artıq onlar Mövlananı görə, onun şirin söhbətlərinə qulaq asa bimirdilər. Bütün bunların da səbəbini Təbrizidə görən bəzi şəxslər bu iki böyük insanın səmimi dostluğuna ləkə gətirən şayiələr həqiqətdən uzaq iftiralar yaymağa başlayırlar. Bu iftiralar əhalinin müəyyən hissəsində Şəms Təbrizi ilə Mövlanaya qarşı xoşagəlməz münasibətin formalaşmasına gətirib çıxarmışdı. Dedi-qodular Təbrizi və Mövlanaya da çatmışdı. Onlar əvvəlcə buna fikir vermədilər. Ancaq adamların get-gedə daha çox hissəsinin onlara şübhə və nifrətlə yanaşmasını görüncə təlaşa düşdülər. Bütün baş verənlərdə özünü günahkar bilən Şəms Təbrizi bir gecə gizlicə Konyanı tərk etdi.

Onun haraya getdiyini və harada olduğunu bilən olmadı. Konyada iki böyük insan arasına fitnə toxumları səpənlər, onlar haqqında iftiralar yayanlar artıq sakit olmuşdular. Onlar belə hesab edirdilər ki, Şəms Təbrizinin yoxa çıxmasından sonra Mövlana əvvəlki həyatını davam etdirəcək. Amma belə olmadı. Təbrizinin yoxa çıxmasından sonra Mövlana daha da insanlardan uzaqlaşdı və öz otağına çəkilərək göz yaşları tökməyə başladı. Dostunun ayrılığına dözməyən Mövlana çəkdiyi bu dərddən ağır xəstələndi.

Mövlananın ölüm ayağında olmasını eşidən Şəms Təbrizi Şamdan (indiki Dəməşqdən) ona məktub yazaraq gələcəyini bildirir. Və 16 aylıq ayrılıqdan sonra Təbrizi yenidən Mövlananın yanına gəlir. Ölüm ayağında olan Mövlana dostunu görəndə sanki yenidən cana gəlir. O sağalaraq ayağa qalxır. Amma bu iki dost yenidən az sonra onlar haqqında yayılan yeni, daha çirkin iftiraların hədəfinə çevrilirlər. Bunu görən Şəms Təbrizi iki aydan sonra yenidən gizlicə Konyanı tərk etməyə məcbur olur. Onun bu gedişi Mövlanaya o qədər ağır təsir göstərir ki, o, göz yaşları içində hamının qəlbini ağrıdan yanıqlı qəzəllər yazmağa başlayır. Mövlana Şəms Təbrizidən xəbər gətirənə bütün var-dövlətini verəcəyini bildirir. Onun bu halını görən iftiraçılar peşman olurlar. Onların bəziləri Mövlananın ayaqlarına düşərək ondan üzr istəyirlər.

Bir neçə aydan sonra Mövlana Şəms Təbrizinin Şamda olduğu barədə xəbər alır və dərhal ona məktub yazır. Lakin dostu onun bu məktubuna cavab vermir. Bunu görən Mövlana ona ikinci dəfə məktub yazır. Bu məktub da cavabsız qalır. Nəhayət, Şəms Təbrizi Mövlananın üçüncü məktubuna cavab verir. Bunu görən Mövlana oğlu sultan Vələdi Şama Şəms Təbrizinin yanına göndərir. Ona tapşırır ki, Təbriz sultanı olan Şəmsin ayaqqabısının içərisinə gümüş və qızıl tök, ayaqqabını isə Ruma Anadoluya tərəf çevir. O, eyni zamanda, Vələdə deyir ki, Təbrizini tapanda onun bir firəng (fransız) uşaqla şahmat oynadığını görəcəksən. Şəms Təbrizi udanda uşağın pulun alır, uşaq udanda isə Şəmsə bir sillə vurur. Mövlana oğluna tapşırır ki, nəbadə uşaq udaraq Təbriziyə sillə vuranda onu müdafiə etməyə başlayasan. Şəms bunu dərhal özünə təhqir kimi qəbul edəcək. Vələd Şama gələrək Şəms Tərizini tapır və həqiqətən də, onun bir fransız uşağı ilə şahmat oynadığını görür. Oyun bitəndən sonra Təbrizi ilə görüşərək vəziyyəti ona izah edir, sonra Konya əhlinin tutduqları işdən peşman olduqlarını söyləyir. Bunu eşidən Şəms Təbrizi onunla birlikdə Konyaya qayıtmağa razı olur.

Vələd atına Şəms Təbrizini mindirərək özü Konyaya qədər piyada gəlir. Onun bu səmimiliyi Şəms Təbrizini olduqca məmnun edir. Konyaya çatanda alim gəldiyini bildirmək üçün dərvişin biri ilə Mövlanaya xəbər göndərir. Mövlana bu şad xəbəri eşidən kimi dərhal cibində olan bütün pullarını dərvişə verir.

Şəms Təbrizinin gəlməsi xəbərini bu dəfə Konyada sevgi ilə qarşılayırlar. Dərhal Mövlananın razılığı ilə şəhərin ən tanınmış adamlarından ibarət bir heyət Təbrizini qarşılamağa gedir. Beləliklə, uzun ayrılıqdan sonra Şəms Təbrizi Konyaya gəlir. Əvvəllər olduğu kimi, bu dəfə də ayrılmaz dostlar 6 ay mədrəsədəki hücrələrdən birində qalırlar. Onlar bu müddət ərzində elmin daha da incəliklərini öyrənir və

mənəvi kamilliklərini artırırlar. Həmin aylarda Mövlana daha da dəyişir və onun üzü sanki nura qərq olur. Mövlananın müridləri isə onların bu dostluğuna qısqanclıqla yanaşır və aralarını vurmaq üçün fürsət axtarırlar. Bu arada Mövlananın digər oğlu Əlaəddin Çələbi müridlərin yanında atasının Şəms Təbrizinin dostluğu nəticəsində ailəsini belə, unutmasından şikayətlənir. Müridlər dərhal bundan istifadə edərək, onu Təbrizinin əleyhinə qaldırırlar. Əlaəddin Çələbinin Şəms Təbrizi ilə başqa bir düşmənçiliyi də vardı. O, atası tərəfindən Təbriziyə bağışlanan və onunla nikahı kəsilən Kimyanı sevirdi. Amma atasının Kimya ilə Təbrizinin nikahını kəsməsinə mane ola və bunun əleyhinə çıxa bilməmişdi. Hətta onlar evlənəndən sonra belə, onun bu qadına olan sevgisi sönməmişdi və hər dəfə Şəmsin yanına gələndə bir bəhanə ilə Kimyanı görməyə can atırdı. Bəzən Əlaəddin çəkinmədən Kimyanın otağına baxmağa belə, cəsarət edərdi. Onun bu hərəkətlərini görən Təbrizi Əlaəddini bərk danlamışdı. Müridlər bunu eşitdikdə onlar Əlaəddini Şəmsdən intiqam almaq üçün daha da qızışdırdılar.

### *Səssiz bir vida və ya dönüşü olmayan gediş*

Əlaəddin uzun-uzadı fikirləşəndən sonra Şəms Təbrizini aradan götürməyin yeganə çıxış yolu olduğu qənaətinə gəlir. O, bununla həm də sevdiyi Kimyaya qovuşacağını düşünür. Onun bu məqsədini bilən Mövlananın müridləri dərhal Əlaəddini intiqam almağı tezləşdirməyi məsləhət görürlər. Əlaəddin Şəms Təbrizini öldürmək üçün ətrafına ona kin bəsləyən 10 nəfərdən ibarət adam yığır. Bu arada gözlənilmədən Kimya vəfat edir. Kimyanın vəfat etməsi Əlaəddinin Şəmsə olan kinini daha da artırır. O, Kimyanın vəfatından az sonra intiqam planını həyata keçirtmək niyyətinə düşür və bir gün Təbrizinin getdiyi yolun üzərində 7 nəfərdən ibarət pusqu qurdurur. Sui-qəsdçilər gecə vaxtı onu Mövlananın yanından çölə çıxarmaq üçün dərvişlərdən birini Təbrizinin yanına göndərirlər. Dərviş qapını döyərək Şəms Təbrizini çölə çağırır.

O, bu gözlənilməz çağırışın mənasını dərhal başa düşür. Çünki bir vaxtlar o, özünə könül dostu arayarkən, bu barədə yuxusunda onu müjdələyənlərə müjdə olaraq başını verəcəyini söyləmişdi. İndi vaxt çatıb və o, başını verməyin məqamı olduğunu anlayır. Ona görə də Mövlanaya deyir ki, məni dönüşü olmayan bir dəvətlə bayıra çağırırlar. Elə buna görə də o, Mövlana ilə qucaqlaşır, ondan halallıq istəyib vidalaşır və sonra da çölə çıxır. Mövlana onun bu vidalaşmasını yeni bir imtahan kimi qəbul edərək, bunun özü üçün də sınaq olduğunu düşünür. Şəms Təbrizinin çölə çıxması ilə "Allah" deyə fəryad çəkməsi bir olur. Mövlana onun bu fəryadını eşidib çölə çıxır. Ancaq heç kimi görmür. Yerdə yalnız bir neçə damcı qan ləkəsi görür. Əvvəlcə, elə zənn edir ki, dostu yenə də ondan ayrılaraq gedib. Ona görə də hər yerə adam salaraq onu axtartmağa başlayır. Amma heç yerdə Təbrizinin izinə düşə bilmir.

Elə bilmə ki, sənsizəm...

Şəms Təbrizini tapa bilməyən Mövlana onun haqqında insanı yandırıb-yaxan kədərli şeirlər söyləyir.

Şəms Təbrizi ilə görüşməmişdən əvvəl Mövlana Konyada sevilən adamlardan biri idi. Ancaq o, həqiqi Allah sevgisinə Şəmslə görüşdükdən sonra qovuşdu. Təbrizi ona həqiqət yolunu göstərdi, onun qəlbində Uca Allaha olan sevgini daha da gücləndirdi. Çünki Şəmsdə sonsuz Allah sevgisi bir vergi idi. Mövlananı Şəmsə bağlayan da onda olan bu sonsuz Allah sevgisi idi. Şəms Təbrizini itirməyə, ayrılığa dözməyən Mövlana yazdığı yeni kitabına "Divani-Şəms" adı verdi. Kitabdakı məsnəvilərində tez-tez Şəms Təbrizidən bəhs edən Mövlana: "Bülbül güldən öyrəndi dadlı danışmağı", - deyirdi.

Nəhayət, Mövlana sövq-təbii anladı ki Şəms Təbrizini əbədi olaraq itirib. Bu arada isə əhali arasında Şəms Təbrizinin Əlaəddinin başçılıq etdiyi qrup tərəfindən öldürüldüyü barədə xəbərlər dolaşırdı. Bu barədə Mövlanaya xəbər verməyə cəsarət edən yox idi. Amma gec də olsa, bu acı xəbəri Mövlanaya çatdırdılar. Bunu eşidən Mövlana: "Ey Şəms, Yusif kimi quyuya getdin", - deyə fəryad etdi. Təbrizinin oğlu tərəfindən öldürüldüyünə əmin olduqdan sonra Mövlana ondan üz döndərdi. O, Əlaəddindən incikliyini oğlunu son mənzilə yola salarkən də büruzə verdi. Belə ki, Mövlana Cəlaləddin oğlunun cənazə namazını qılanların sırasına qatılmadı və məzarlığa getmədi.

### *Həqiqət qurbanı*

Rəvayətə görə, Şəms Təbrizi öldürüldükdən sonra onun cəsədi quyuya atılmışdır. Amma bunun nə dərəcədə həqiqət olduğunu heç kəs dəqiq bilmir. Əlavə edək ki, onun şəxsiyyəti haqqında bəzən xoşagəlməz rəvayətlər də söylənilir. İnanmaq çətindir ki, bütün varlığı ilə Allaha bağlı olan və sinəsində ilahi sevgi yaşadan bu böyük insan öz adına ləkə gətirə biləcək hər hansı bir iş görsün. Sadəcə olaraq, insanların çoxu kimi, Şəms Təbrizinin də özünəməxsus xüsusiyyətləri olmuşdur və onun bu özəlliklərinin kökündə Allaha sevgi və məhəbbət dayanırdı.

O dövrün tanınmış elm adamlarından olan Siracəddin isə Təbrizi haqqında belə deyir: "O, elm və mərifət sultanı idi. Sanki bu dünyaya insanlara bir örnək olaraq göndərilmişdi. Onun hər kəlməsində, hər sözündə ilahi bir hikmət vardı. O danışanda simasından elə bil nur yağırdı. Əvvəllər mən bunu başa düşmürdüm. Sonra anladım ki, bu nur onun qəlbindən, saflığından, mənəvi kamilliyindən doğur. Onun təfəkkürünün sərhədsiz olmasına sultanın özü də bir dəfə şahid oldu. Sultanın bir oğlu vardı. O, çox igid və yaraşıqlı bir gənc idi. Ancaq onun yaddaşı hədsiz dərəcədə zəif idi. Bir şeiri əzbər öyrənir, ancaq dərhal da yadından çıxarırdı. Müəllimləri onun bu vəziyyətindən üzülür və nə edəcəklərini bilmirdilər. Sultan da oğlunun bu halından yaddaşsızlığından narahat olmuşdu.

Sultan çox adamlarla, o dövrün tanınmış həkimləri ilə məsləhətləşdi. Hərə oğlanın yaddaşının zəifliyini müalicə etmək üçün bir məsləhət verdi. Ancaq

deyilənlərin heç biri sultanın oğlunun yaddaşının müalicəsinə yardım edə bilmədi. Hər yerdən əli üzülən sultana vəzirləri məsləhət gördülər ki, kömək üçün Şəms Təbriziyə müraciət etsin. Sultan Təbrizinin hüzuruna gəlib oğlunun vəziyyətini ona danışdı. Təbrizi sultana: "Oğlunuzun yaddaşını müalicə etmək mümkündür. Bunun üçün o, hər gün Qurani-Kərimin bir cüzünü - 20 səhifəni əzbərləsin", - dedi. Orada olanlar Təbrizinin bu sözlərindən heyrətə gəldilər. "Oxuduğu hər hansı bir yazını az sonra yadından çıxaran Sultanın oğlu ərəb dilində olan 20 səhifəni necə əzbərləyəcək və necə yadında saxlayacaq?" - deyə orada olanlar bir-birlərindən soruşdular. Bunu eşidən Təbrizi sultanın oğlunun hər gün Qurani Kərimdən 20 səhifə əzbərləməsini öz nəzarəti altına götürəcəyini bildirərək narahatçılığa əsas olmadığını söylədi. Həqiqətən də, sultanın oğlu bir ay ərzində Qurani-Kərimi tamamilə əzbərlədi və bununla da onun yaddaş zəifliyindən əsər-əlamət qalmadı.

Oğlunun müalicə olunduğunu görən sultan az qala Təbrizinin ayaqlarına düşərək ona təşəkkür etdi. Sonra o, alimə çoxlu qızıl-gümüş təklif etdi. Təbrizi isə: "Mənim dünya malında gözüm yoxdur. Sizdən bircə şey istəyirəm: əgər oğlunuzun səadətini istəyirsinizsə, onun hər hansı bir işə başlayanda Qurani-Kərimə sığınaraq görməsini tapşırın. Qoy bütün işlərini Qurani-Kərimə uyğun qursun, hökm verəndə ona əsaslansın. Belə etsə, ölkə də səadətə qovuşar, haqq-ədalət də öz yerini tapar, oğlunuz da əbədi səadətə qovuşmağın yolunu tapar", - dedi.

Bir dəfə Şəms Təbrizi Mövlana ilə birgə aylı gecədə mədrəsənin damında oturub söhbət edirdilər. Arada Mövlana ətrafına göz gəzdirərək: "Heç bir pəncərədən işıq gəlmir, hər kəs yatır. Bu hallarında onların ölülərdən heç bir fərqləri yoxdur. Kaş ki onlar oyanaraq axirət üçün çalışaydılar və qiyamət günündə əzab çəkməyəydilər", - dedi. Bunu eşidən Təbrizi əllərini göyə qaldıraraq: "Ya Rəbbim, Şəms Təbrizi həzrətlərinə olan hörmətinə ölü kimi yatan bu insanları oyandır", - deyə dua etdi. O, bu duanı bitirər-bitirməz göy üzünü buludlar bürüdü, şimşək çaxmağa, bərk yağış yağmağa başladı. Göy gurultusuna hamı oyandı, evlərdən səslər gəlməyə başladı. İnsanlar qəfil yağmağa başlayan bu yağışdan və aramsız göy gurultularından narahat olaraq Allaha dua etməyə, Qurani-Kərimdən ayələr oxumağa başladılar. Onların bu dualarını bir müddət dinləyən Təbrizi üzünü Mövlanaya çevirərək: "İnsanların Uca Allaha daha sıx sığınmaları üçün onların kamil, adil və elmli bir rəhbərə ehtiyacları var. Ancaq belə bir rəhbərə malik olan insanlar yerlərin və göylərin afətlərindən - bəlalarından qoruna bilərlər. Özün də gördün ki, bu insanların yuxudan oyanmaları üçün göy guruldamasına, yağış yağmasına ehtiyac vardı. Ona görə də insanların qəflət yuxusundan oyanaraq Haqqa qovuşa bilmələri üçün Uca Allahın sevimlisi olan bir müqəddəs adama vəliyə ehtiyacları var", - dedi.

Mövlana bir gün tələbələri ilə söhbətində Şəms Təbrizinin mənəvi təmizliyindən, onun kəramətindən, Allaha bağlılığından sonsuz bir məhəbbət və şövqlə danışmağa başladı. Bunu eşidən tələbələr Şəms Təbrizinin yanına getmək, onunla görüşmək istədilər. Sultan Vələdin yazdığına görə, o, bütün tələbələrdən öncə Təbrizinin yanına gedir. Təbrizi Sultan Vələdi görüncə: "Atanın mənim haqqımda

tələbələrə dedikləri doğrudur. Amma Mövlananın yanında min Şəms belə, bir zərrə təsiri bağışlayır. Ona görə də onun yanından qaça-qaça mənim yanıma gəlməyiniz düz deyil", - deyir və sonra onun ardınca təngnəfəs halda gələn digər tələbələrə də eyni sözləri söyləyərək, onları geriyə Mövlananın yanına qaytarır.

## *Şəms Təbrizinin hikmətli sözləri, insanlara vəsiyyəti*

Bir dəfə Şəms Təbrizinin el arasında sonsuz sevgi qazanmasına həsəd aparan adamlardan biri ondan soruşur: "Ya Şəms, sizi hamı sevir. Mən isə nə etsəm də, sizin kimi, xalqın sevgisini qazana bilmirəm". Təbrizi bu sözləri deyənin üzünə sınayıcı nəzərlə baxır və sonra: "İnsanın əbədi səadətə və ilahi sevgiyə qovuşması, onun özünü Haqq yoluna istiqamətləndirə, Haqqın yolunda hər bir əzaba dözə bilməsindən asılıdır. Bu dünyanın var-dövlətində gözü olanlar, nəfsinə uyanlar Haqqın yolunu tapa bilməzlər. Həqiqət, Haqq yolunun tapılmasına mane olan 4 əngəl var: şəhvət, çox yemək, mal və vəzifə, bir də qürur. Bu əngəllər insanın Allaha qovuşmasına imkan verməz", - deyə ona cavab verir.

Bir dəfə isə o, Uca Allaha qovuşmağın yollarından birini də göstərərək deyir: "Elm üç şeydir: zikr edən dil, şükür edən ürək, səbr edən bədən".

Təbrizi insanlara çox yeməməyi məsləhət görürdü. O bildirirdi ki, pəhrizi olmayan bir vücud meyvəsiz ağac, utanmaq hissi olmayan sifət duzsuz aş, qeyrəti olmayan insan isə sahibsiz bir qula bənzəyir.

O dövrün tanınmış adamlarından bir neçəsi Şəms Təbrizidən bir dəfə soruşurlar ki, insanların ən qiymətlisi, hamıdan üstün olanı kimdir? Şəms həzrətləri isə: "Şükür edən varlı, qənaətli olan və səbr edən yoxsul, işlətdiyi günahlardan peşman olaraq əzablardan, haram yeməkdən qorxan və dünya malında gözü olmayan adamlar", - deyə cavab verir. Bu cavab qarşısındakıları razı salsa da, onlar yenə Təbrizidən soruşurlar ki, dediyin insanlar arasında üstünlərin üstünü hansıdır. Təbrizi sakit halda və müdrikcəsinə deyir ki, onlar arasında üstün olanı elm və helm (yumşaq təbiətli insanlar) sahibi olan alimlərdir.

O dövrün tanınmış şəxsləri Şəms Təbrizini dəfələrlə imtahana çəkmişlər. Ancaq Təbrizi hər dəfə də bu sınaqlardan uğurla çıxmışdır. Belə imtahanların birində ondan soruşurlar ki, comərdlik nədir? Təbrizi cavab verir ki, comərdlik və səxavət 4 növdür: mal, bədən, can və qəlb. Mal comərdliyi əsasən zahidlərə, dünyaya qiymət verməyənlərə aiddir. Onlar malı verirlər, amma əvəz istəmirlər. Bu insanlar üçün ən əsası haqq, ədalət yoludur. Bədən comərdliyi müctəhid olan alimlərə xas xüsusiyyətdir. Həmin şəxslər həqiqət naminə canlarından keçər və hidayətə çatarlar. Can comərdliyi şəhidlərə aiddir. Onlar canlarını verərək Cənnəti alarlar. Qəlb comərdliyi isə ariflərə məxsus xüsusiyyətdir. Ariflər könül verərək məhəbbət alarlar. Təbrizi "Məqalət" adlı kitabında bu mövzudan bəhs edərək yazır: "Əgər insan oğlunun ədəbdən qisməti yoxsa, o, insan deyildir. Çünki insanı heyvandan fərqləndirən cəhətlərdən biri də onun ədəbidir".

## *"Edə biləcəyim bir şey yoxdur..."*

Şəms Təbrizinin başına gələnlər haqqında söylənən rəvayətlərdən birində bildirilir ki, o, bir dəfə Şamdan Konyaya gələndə yorulur və yol üstündəki bir evə girərək yatmaq istəyir. Amma mənzildə boş otaq tapmayıb məscidə gedir və orada gecələmək qərarına gəlir. O, məsciddə yatsı (işa) namazını qılır. Camaat dağılandan sonra da bir qədər dua edir. Duasını bitirəndə isə məsciddə heç kimin qalmadığını görür. Sonra Təbrizi cübbəsini çıxararaq başının altına qoyub yatır. Yorğun olduğundan o saat da yuxuya gedir. Bir müddət sonra məscidin qapılarını bağlamaq üçün gələn gözətçi birinin orada yatdığını görür. Gözətçi Təbrizini silkələyib oyadır və deyir ki, qalx, məscidi bağlayıram. Təbrizi ona uzaqdan gəldiyini, yorğun olduğunu və ömründə bir adama da zərəri dəymədiyini deyir və onu rahat buraxmasını xahiş edir. Gözətçi isə sərt şəkildə bildirir ki, deyilənlərin ona heç bir dəxli yoxdur, gedib harada gecələyir-gecələsin, onun işi cameyə cavabdehlikdir. Təbrizi yorğun olduğunu və bir az yatmaq üçün icazə verməsini ondan bir daha xahiş edir. Amma gözətçi səs-küy salaraq, onun yaxasından yapışır və deyir ki, məsciddən çıxmasan səni parça-parça edəcəyəm. Əlacsız qalan Təbrizi məsciddən çıxır. O, məsciddən bir az uzaqlaşandan sonra gözətçi boğulmağa başlayır.

Gözətçi fəryad edərək, boğula-boğula köməyə məscidin imamını çağırır. İmam onun boğulmasının səbəbini soruşanda, o da Təbrizi ilə aralarında baş verən hadisəni ona danışır və bundan sonra halının dəyişdiyini söyləyir. İmam dərhal məsələnin nə yerdə olduğunu başa düşür və Təbrizinin ardınca qaçmağa başlayır. O, Təbrizidən gözətçini etdiyi günaha görə bağışlamasını xahiş edir. Təbrizi də deyir ki, artıq bu iş onluq deyil. O yalnız Allaha dua edə bilər ki, imanla ölsün.

## *Üç sual, bir cavab*

Təbrizi ilə bağlı digər bir maraqlı əhvalat da danışılır. Belə ki, günlərin birində dövrün məşhur filosoflarından bir qrup Mövlananın yanına gələrək, ona bir neçə sual vermək istəyirlər. Mövlana həzrətləri isə onlara Təbriziyə müraciət etməyi məsləhət görür. Filosof alimlər Mövlananın dediyinə əməl edərək Təbrizinin yanına gedirlər. Təbrizi həmin vaxt məsciddə tələbələrə təyəmümün necə edildiyini əlindəki kərpiclə əyani şəkildə göstərirdi. Filosof alimlər məsələni ona danışır və Təbrizidən üç suala cavab almaq istədiklərini bildirirlər. Şəms Təbrizi onların sualına cavab verməyə hazır olduğunu bildirir. Alimlər aralarından daha biliklisini seçərək, ondan Təbriziyə sual verməsini xahiş edirlər.

Həmin alim soruşur: "Allah var deyirsiniz, onu göstər, inanım". Təbrizi onun üzünə baxmadan deyir ki, o biri sualını de. Alim: "Şeytan oddan yaranıb deyirsiniz, ona atəşlə də əzab veriləcəyini, odda yanacağını iddia edirsiniz. Heç atəş də atəşdə yanarmı?" Təbrizi yenə də halını pozmadan ondan digər sualını verməsini xahiş edir. Alim bu dəfə:

"Axirətdə hər kəs haqqını alacaq deyirsiniz. Kim nə günah işləsə, cəzasını çəkəcək. Sizə nə qalıb ki, bunlara müdaxilə edirsiniz? Qoy hər insan bildiyini etsin", - deyə Təbriziyə sərt şəkildə irad tutur. Bunu eşidən Təbrizi əlindəki kərpici sualı verənin başına vurur... O biri alimlər Təbrizinin onları da kərpiclə vuracağını düşünərək dağılışırlar. Sonra alimlər şəhər qazısının yanına gedərək, Təbrizinin onları öldürmək istədiyi barədə şikayət edirlər. Qazı Təbrizini yanına çağırır və məsələni soruşur. Təbrizi isə deyir ki, onlar mənə sual verdilər, mən də sualların cavabını kərpiclə verdim. Qazı arif adam idi və başa düşür ki, Təbrizi bunları boş-boşuna etməyib. Ona görə də Təbrizidən məsələyə aydınlıq gətirməsini xahiş edir. Təbrizi də: "Onlar mənə Allah-Təalanı göstər, ona inanaq dedilər. İndi deyirlər ki, kərpiclə vurmusan, başım ağrıyır. Onlar mənə əvvəlcə ağrını göstərsinlər", - dedi. Şikayətçi alim dərhal: "Baş ağrısı görünməz", - deyir. Təbrizi də Allahın mövcudluğunu, ancaq görünməz olduğunu bildirərək deyir ki, sənin başının ağrısı görünmədiyi halda, o boyda yeri, göyü yaradan Allah necə görünə bilər". Təbrizi onların şeytanla bağlı sualına cavabında isə deyir ki, insan torpaqdan yaradılıb. Mən də səni torpaqdan hazırlanan kərpiclə vurdum və başın ağrıdı. Elə isə, niyə atəşdən yaradılan şeytana atəşlə də əzab verilməsin. Onlar mənə dedilər ki, insanlara mane olmayın, qoyun hərə bildiyi kimi yaşasın. Mən də kefim istədiyi kimi yaşamaq üçün onu vurdum. Belə olanda onlar məndən niyə qazıya şikayət etməlidirlər? Əgər bu kiçik dünyada mən onu vurduğum üçün onlar haqlarını tələb edirlərsə, onda axirət dünyasında niyə haqq aranmasın ki?" Onun bu cavabı qazını çox məmnun, filosof alimləri isə pərişan edir. Onlar Təbrizinin sözləri qarşısında heç nə deyə bilməyərək məsələnin bitmiş olduğunu söyləyirlər.

### *Allah kinli insanlara cənnət nəsib etməz*

Təbrizinin Uca Yaradana olan sevgisini onun daxilindən axıb gələn coşqun bir dağ çayına bənzətmək olar. O: "Allah yaxşılıq edənləri sevir. Allah o insanlara cənnət nəsib edəcək ki, onlar insanları bağışlaya bilirlər. Allahın nəzərində ən böyük insan qulunu etdiyi xətalara görə bağışlamağı bacaran şəxslərdir. Kinli insanlara cənnətdə yer tapılmaz. Əfv etmək böyüklük nişanəsidir", - deyərdi.

Bununla bağlı maraqlı bir rəvayət söyləyirlər. Bir dəfə bir qrup tanınmış adam Təbrizini sınamaq üçün onun üstündə olan bütün pullarını oğurlayır. Bundan xəbəri olmayan alim bazara çıxır və özünə lazım olan malı almaq istəyəndə cibinə qoyduğu pulu tapmır. Buna görə də o, istədiyi malı almaqdan vaz keçir və hücrəsinə qayıdır. Təbrizi bir neçə gün heç yerə çıxmır. Təbrizini sınamaq üçün onun pulunu götürənlər narahat olub dərhal alimin qaldığı hücrəyə gəlirlər. İçəri girəndə onlar Təbrizini Allaha dua edən vəziyyətdə görürlər. Hücrəyə başqalarının girməsindən xəbər tutmayan Təbrizi həmin anda belə deyir: "Ya Rəbbim onlar günah etdilər. Mənim bir dəyəri olmayan parama görə onların günahından keç. Zira mən də oğurladıqları paranı onlara halal etdim". Dua bitər-bitməz, onu sınamaq istəyən adamlar bu böyük insanın

fədakarlığı qarşısında diz çökərək üzr istəyirlər. Onlar oğurluğun səbəbini onu sınamaq olduğunu deyirlər və paranı geri qaytarmaq istəyirlər. Təbrizi isə pulu almır və əllərini yenidən başı üzərinə qaldıraraq, onların bu günahının da bağışlanması üçün dua edir. Sonra o deyir ki, bu pulların halallığını artıq verib və onu alsa, bağışlanmaz günah işləmiş olacaq. Bir dəfə də sultan Təbrizinin yanına gələrək, ondan cənnətə düşmək üçün nə etməli olduğunu soruşur. Təbrizi deyir ki, cənnəti qazanmaq istəyirsənsə, onda haqq və ədaləti hər şeydən üstün tut, günahkarları bağışla. O: "Sənin dar ağacına göndərdiyin, boynunu vurduğun hər adam cəhənnəmə gedən yolunu daha da yaxınlaşdırır və bunun günahından qurtara bilməyəcəksən", - deyir.

Türk-İslam dünyasının ən böyük alimlərindən biri olan Şəms Təbrizinin həyatı və irsi bu gün də tədqiqatçıların diqqət mərkəzindədir. Çünki onun söylədiyi ideyalar həmişə aktual və yaşardır.

# MÜNDƏRİCAT

ƏCƏMİ NAXÇIVANİ ........................................ 3
NƏSİRƏDDİN TUSİ ........................................ 8
ŞƏMS TƏBRİZİ ........................................ 18